AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ISSN 2709-247X (Print)
ISSN 2709-2488 (Online)

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

ELMİ-METODİK JURNAL

2023, №4/245

JOURNAL of PRESCHOOL
and PRIMARY EDUCATION

Jurnalın indekslənməsi/ İndexed by

Azərbaycan Respublikasının
Prezidenti yanında
Ali Attestasiya Komissiyası

ESJI Eurasian Scientific Journal Index
www.ESJIndex.org

DRJI Directory of Research Journal Indexing

CYBERLENINKA

ROOTINDEXING
JOURNAL ABSTRACTING AND INDEXING SERVICE

Scilit

INTERNET ARCHIVE

calameo

idealonline

CiteFactor
Academic Scientific Journals

ERIHPLUS
EUROPEAN REFERENCE INDEX FOR THE HUMANITIES AND SOCIAL SCIENCES

INDEX COPERNICUS
INTERNATIONAL

doi® digital object identifier

## MƏKTƏBƏQƏDƏR və İBTİDAİ TƏHSİL

Elmi-metodik jurnal. 1970-ci ildən «Azərbaycan məktəbi» jurnalına əlavə kimi nəşr olunmağa başlayıb. Jurnal 2000-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyinin elmi-metodik nəşri kimi fəaliyyətini davam etdirir. ISSN 2709-247X (Print) lSSN 2709-2488 (Online)

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05 may 1997-ci il tarixli Nizamnaməsi ilə təsdiq edilmiş, Ədliyyə Nazirliyində «İbtidai məktəb və məktəbəqədər tərbiyə» adı ilə dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat şəhadətnaməsi № 544. 2009-cu ildə jurnalın adı dəyişilərək «Məktəbəqədər və ibtidai təhsil» adlandırılmışdır (AR Ədliyyə Nazirliyinin 11/648 №-li, 20.05.2009-cu il tarixli məktubu).

«Məktəbəqədər və ibtidai təhsil» jurnalı məktəbəqədər və ibtidai təhsil sahəsində elmi-nəzəri məqalələrin, müasir dövrün tələblərinə uyğun milli və xarici təcrübəni praktik və nəzəri baxımdan əks etdirən araşdırma materiallarının nəşrini həyata keçirir. Jurnalda təlimin məzmununu, tərbiyəçi və müəllimlərin, psixoloq və defektoloqların pedaqoji təcrübəsini ümumiləşdirən məqalələrə yer verilir. Müasir təlim texnologiyalarının, pedaqoji innovasiyaların təbliği, ailə-məktəb, müəllim-şagird, tərbiyəçi-uşaq münasibətlərinin pedaqoji-psixoloji aspektlərini əks etdirən yazıların dərci jurnalda daim diqqət mərkəzində saxlanılır. Məqalələr Azərbaycan, rus, ingilis və türk dillərində dərc olunur. Müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi-metodiki nəticəsi olmayan məqalələr qəbul edilmir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

---

## PRESCHOOL and PRIMARY EDUCATION

Scientific and methodological journal. It has been published since 1970 as a supplement to the «Azerbaijan Journal of Educational Studies». The journal has been operating as the scientific-methodical publication of the Ministry of Science and Education Republic of Azerbaijan since 2000. ISSN 2709-247X (Print) ISSN 2709-2488 (Online)

The journal «Preschool and primary education» publishes scientific and theoretical articles in the field of preschool and primary education, research materials reflecting national and international experience from a practical and theoretical point of view in accordance with the modern requirements. The journal also publishes articles summarizing the content of training, the pedagogical experience of educators, teachers, psychologists and disability specialists. Promotion of modern learning technologies, pedagogical innovations and articles that reflect pedagogical and psychological aspects of family-school, teacher-student, educator-child relationships are always in the focus of the journal. Articles are published in Azerbaijani, Russian, English and Turkish languages. Articles that reflect the conflict of interests and have no scientific methodological purpose are not accepted. The journal is among the recommended scientific publications of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

---

© Məktəbəqədər və ibtidai təhsil / Preschool and Primary Education, 2023

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
**“Məktəbəqədər və ibtidai təhsil” jurnalı**

## Baş redaktor əvəzi
Böyükağa Mikayıllı

## Redaksiya heyəti

**Aqşin Əliyev** (Pekin Xarici Dillər Universiteti)
**Arif Əsədov** (Bakı şəhəri, 291 nömrəli Ekologiya liseyi)
**Xalidə Musayeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Kəklik Məmmədova** ("Məktəbəqədər və ibtidai təhsil" jurnalı)
**Laləzər Cəfərova** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Müseyib İlyasov** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Natalya Naumova** (Rusiya Federasiyası Samara Humanitar Akademiyası)
**Səidə Əhmədova** (BŞTİ, Təlimə Dəstək Mərkəzi)
**Təranə Mirzəyeva** (Göyçay şəhər, 3 nömrəli tam orta məktəb)
**Tran Mai Uoc** (Ho Chi Minh Bankçılıq Universiteti, Vyetnam)
**Ülviyyə Mikayılova** (ADA Universiteti)

## Redaksiya şurası

**Aydın Əhmədov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Akif Abbasov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Asəf Zamanov** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Bibixanım İbadova** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Buket Akkoyunlu** (Çankaya Üniversitesi, Türkiyə)
**Cəlal Allahverdiyev** (Azərbaycan Dövlət İqtisad Universiteti)
**Doris Bühler-Niederberger** (Wuppertal Universiteti, Almaniya)
**Eve Eisenschmidt** (Tallin Universiteti, Estoniya)
**Elnur Nəsibov** (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi)
**Elvin Rüstəmov** (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi)
**Esmira Ağayeva** (İlyas Əfəndiyev adına Elitar Gimnaziya)
**Ənvər Abbasov** (Bakı Slavyan Universiteti)
**Fərrux Rüstəmov** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Hamlet İsaxanlı** (Xəzər Universiteti, Azərbaycan)
**Hümeyir Əhmədov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Həqiqət Hacıyeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**İntiqam Cəbrayılov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**İlahə Rəsulova** (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi)
**İradə Məlikova** (74 nömrəli tam orta məktəb)
**İlham Cavadov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Könül Pirverdiyeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Nargiza Jumanazarova** (Jizzax Universiteti, Özbəkistan)
**Pavel Luşin** (Ukrayna Pedaqoji Elmlər Akademiyası)
**Ramiz Əliyev** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Rüfət Əzizov** (Sumqayıt Dövlət Universiteti)
**Regina Kunce (**Berlin “Mozaika” gimnaziyası)
**Şəhla Əliyeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Vidadi Xəlilov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Vidadi Orucov** (Lənkəran Dövlət Universiteti)
**Vira Remajevskaya** («Lewenia» Təhsil və Reabilitasiya Mərkəzi, Ukrayna)

## Redaksiya
Kəklik Məmmədova, Məhəbbət Əliyeva, Landa Cəfərova, Aytən Həsənova, Arzu Nuruzadə, Nərgiz Muradova, İradə Əsədova

## Redaksiyanın ünvanı:
AZ 1118, Bakı şəhəri, Nəsimi küçəsi 37
Telefon: (+994) 50 344 96 76
E-mail: info@ppe-journal.edu.az

THE MINISTRY OF SCIENCE AND EDUCATION REPUBLIC OF AZERBAIJAN
**Journal of Preschool and Primary Education**

## Editor-in-chief
Boyukagha Mikayilli

## Editorial Board

**Agshin Aliyev** (Beijing Foreign Studies University)
**Arif Asadov** (Baku city, Ecological Lyceum No.291)
**Khalida Musaeva** (Azerbaijan State Pedagogical University)
**Keklik Mammadova** (Journal of Preschool and Primary Education)
**Lalazar Jafarova** (Education Institute of the Republic of Azerbaijan)
**Museib Ilyasov** (Azerbaijan State Pedagogical University)
**Natalya Naumova** (Russian Federation Samara Humanitarian Academy)
**Saida Akhmedova** (Training Support Center of the Education Department of Baku)
**Tarana Mirzeyeva** (Goychay city, Secondary school No. 3)
**Tran Mai Uoc** (Ho Chi Minh University of Banking, Vietnam)
**Ulviya Mikayilova** (ADA University)

## Editorial council

**Aydin Ahmadov** (Education Institute of the Republic of Azerbaijan)
**Akif Abbasov** (Education Institute of the Republic of Azerbaijan)
**Asef Zamanov** (Azerbaijan State Pedagogical University)
**Anvar Abbasov** (Baku Slavic University)
**Bibikhanim Ibadova** (Education Institute of the Republic of Azerbaijan)
**Buket Akkoyunlu** (Çankaya University, Turkey)
**Jalal Allahverdiyev** (Azerbaijan State University of Economics)
**Doris Bühler-Niederberger** (University of Wuppertal, Germany)
**Eve Eisenschmidt** (Tallinn University, Estonia)
**Elnur Nasibov** (Ministry of Science and Education Republic of Azerbaijan)
**Elvin Rustamov** (Ministry of Science and Education Republic of Azerbaijan)
**Esmira Aghayeva** (Elite Gymnasium named after I. Efendiyev)
**Farrukh Rustamov** (Azerbaijan State Pedagogical University)
**Hamlet Isakhanli** (Khazar University, Azerbaijan)
**Humeyir Ahmadov** (Institute of Education of the Republic of Azerbaijan)
**Hagigat Hajiyeva** (Azerbaijan State Pedagogical University)
**Intigam Jabrayilov** (Institute of Education of the Republic of Azerbaijan)
**Ilaha Rasulova** (Ministry of Science and Education Republic of Azerbaijan)
**Irada Malikova** (Secondary school No. 74)
**Ilham Javadov (**Education Institute of the Republic of Azerbaijan
**Konul Pirverdiyeva** (Azerbaijan State Pedagogical University)
**Nargiza Jumanazarova** (Jizzakh University, Uzbekistan)
**Pavel Lushin** (Academy of Pedagogical Sciences of Ukraine)
**Regina Kunce (**Berlin Mosaic Gymnasium)
**Ramiz Aliyev** (Azerbaijan State Pedagogical University)
**Rufat Azizov** (Sumgait State University)
**Shahla Aliyeva** (Azerbaijan State Pedagogical University)
**Vidadi Khalilov** (Education Institute of the Republic of Azerbaijan)
**Vidadi Orujov** (Lankaran State University)
**Vira Remajevskaya** (Education and Rehabilitation Center «Lewenia», Ukraine)

## Editorial team
Keklik Mammadova, Mahabbat Aliyeva, Landa Jafarova, Aytan Hasanova, Arzu Nuruzade, Nargiz Muradova, Irada Asadova

## Adress:
37 Nasimi St., Baku, Azerbaijan 1118
Tel: (+994) 50 344 96 76
E-mail: info@ppe-journal.edu.az

İÇİNDƏKİLƏR / №4, 2023

**Şərafət Baxışova**
Valeologiya – sağlamlıq mədəniyyətinin elmi-pedaqoji əsası kimi 9–23

**Uğurcan Toqay**
Dəniz və meşə məktəbi təcrübələrinin məktəbəqədər yaşlı uşaqlara təsirlərinin tədqiqi: fenomenoloji təhlil 25–39

**Ayxan Hüseynli**
Məktəbəqədər yaşlı dizartriyalı uşaqların korreksiya işlərində riskli ailələrin rolu 41–48

**Lalə Əbilova**
Kiçik yaşlı məktəblilərin şəxsiyyət kimi formalaşdırılmasında ailə ilə məktəbin birgə işi 49–61

**Seyyub Asadov**
İstedadlı uşaqların erkən aşkara çıxarılması və təlim-tərbiyə işinin təkmilləşdirilməsi yolları 63–77

**Sədaqət Əliyeva**
Uşaqların ətraf aləmlə tanışlığının onların təfəkkürünün inkişafına təsirinin nəzəri və təcrübi əhəmiyyəti 79–89

**Ayşən Babayeva**
Uşaqların məktəbə hazırlığının psixodiaqnostikası və psixokorreksiyası 91–100

CONTENTS / №4, 2023

**Sharafat Bakhishova**
Valeology – as a scientific-pedagogical basis of health culture 9–23

**Ugurcan Togay**
Investigation of the effects of Sea and Forest School practices on preschool students: a phenomenological analysis 25–39

**Aykhan Huseynli**
The influence of "at-risk families" on the correctional work of preschool children with 41–48

**Lala Abilova**
Joint work of the family and the school in forming young schoolchildren as personalities 49–61

**Seyyub Asadov**
Technique and methodology of pedagogical support shown in the process of education of talented children 63–77

**Sadagat Aliyeva**
Theoretical and practical signicance of the influence of children's familiarity with the environmental world on the development of their thinking 79–89

**Ayshan Babayeva**
Psychodiagnosis and psychocorrection of children`s preparation for school 91–100

# VALEOLOGY – AS A SCIENTIFIC-PEDAGOGICAL BASIS OF HEALTH CULTURE

**Sharafat Bakhishova**

Azerbaijan State Pedagogical University,
Doctor of Sciences in Pedagogy, associate professor
E-mail: sharafat_bakhishova1960@mail.ru
https://orcid.org/0000-0003-7848-2068

**Abstract**. It is mentioned in the article that in recent decisions and conceptual documents adopted by the state of Azerbaijan on preschool education, the content of the programs is not only for the intellectual development of children but also for the protection of their health. It is proposed as a priority issue. Preschool education focuses not only based on cognitive development in children but also the creation of appropriate conditions to ensure their physical development. Therefore, it is necessary to form the basis of the quality of preschool education by the factors that protect and strengthen the child's health. Raising a healthy and perfect person is the most important task of the society. Valeology is the science of health. Organized valeology training in preschool educational institutions will help protect the child's health in the future and avoid life-threatening situations. The purpose of valeology classes is to expand children's ideas about their own bodies, health, and life-threatening situations, to teach them personal hygiene skills, physical communication, and the culture of spending leisure time.

**Keywords**: valeological knowledge, child's physical development, health culture, healthy and perfect person, healthy environment, personal hygiene skills.

**DOI:** 10.30546/2709-2488.4.2023.9
**To cite this article:** Bakhishova Sh. (2023). Valeology – as a scientific-pedagogical basis of health culture. *Journal of Preschool and Primary Education*, Vol. 245, Issue IV, pp. 9-23.
**Article history:** received – 19.10.2023; accepted – 15.11.2023.

# VALEOLOGİYA– SAĞLAMLIQ MƏDƏNİYYƏTİNİN ELMİ-PEDAQOJİ ƏSASI KİMİ

**Şərafət Baxışova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
pedaqogika üzrə elmlər doktoru, dosent
E-mail: sharafat_baxishova1960@mail.ru
https://orcid.org/0000-0003-7848-2068

**Annotasiya.** Məqalədə qeyd olunur ki, Azərbaycan dövlətinin son dövrlərdə məktəbəqədər təhsil üzrə verdiyi qərarlarda və qəbul etdiyi konseptual sənədlərdə proqramların məzmununun uşaqların yalnız intellektual inkişafına deyil, həm də sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə istiqamətləndirilməsi prioritet məsələ kimi irəli sürülür. Məktəbəqədər təhsil uşaqlarda yalnız idrakı inkişafın əsasını deyil, həm də onların fiziki inkişafını təmin etmək üçün müvafiq şəraitin yaradılmasını ön plana çəkir. Ona görə də məktəbəqədər təhsilin keyfiyyətinin əsasını uşağın sağlamlığını qoruyan və möhkəmləndirən amillərin təşkil etməsi zəruridir. Sağlam və kamil insan yetişdirmək cəmiyyətin ən mühüm vəzifəsidir. Valeologiya – sağlamlıq haqqında elmdir. Məktəbəqədər təhsil müəssisələrində valeologiya üzrə təşkil olunmuş məşğələlər gələcəkdə uşağın sağlamlığını qorumağa, həyati təhlükəsi olan vəziyyətlərə düşməməyə kömək edəcəkdir. Valeologiya məşğələlərinin təşkil olunmasında məqsəd uşaqların öz bədənləri, sağlamlıqları və həyat üçün təhlükəli olan vəziyyətlər haqqında təsəvvürlərini genişləndirmək, onları şəxsi gigiyena bacarıqları, şifahi ünsiyyət və asudə vaxtın səmərəli keçirilməsi mədəniyyətinə yiyələndirməkdir.

**Açar sözlər:** valeoloji biliklər, uşağın fiziki inkişafı, sağlamlıq mədəniyyəti, sağlam və kamil insan, sağlam mühit, şəxsi gigiyena bacarıqları.

**DOI:** 10.30546/2709-2488.4.2023.9
**Məqaləyə istinad:** Baxışova Ş. (2023). Valeologiya – sağlamlıq mədəniyyətinin elmi-pedaqoji əsası kimi. «*Məktəbəqədər və ibtidai təhsil*», № 4 (245), səh. 9-23.
**Məqalə tarixçəsi:** göndərilib – 19.10.2023; qəbul edilib – 15.11.2023.

## Giriş / Introduction

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin məktəbəqədər təhsil üzrə verdiyi qərarlarda və qəbul etdiyi konseptual sənədlərdə proqramların məzmununun uşaqların yalnız intellektual inkişafına deyil, həm də sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə istiqamətlənməsi prioritet məsələ kimi irəli sürülür. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda deyilir: "Maddə 14. Məktəbəqədər tərbiyə müəssisələri 1. Təhsilin əsasında məktəbəqədər tərbiyə durur. Məktəbəqədər tərbiyə ailədə və məktəbəqədər uşaq tərbiyə müəssisələrində həyata keçirilir. Məktəbəqədər tərbiyə müəssisələrində uşaqlar ailə ilə sıx əməkdaşlıq şəraitində tərbiyə olunurlar. Dövlət körpələrin tərbiyəsi, sosial müdafiəsi üçün maliyyə və maddi yardım göstərilməsinə təminat verir ["Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu., 2009].

Məktəbəqədər təhsil uşaqların yalnız idrakı inkişafını deyil, həm də fiziki inkişafını təmin etmək üçün məktəbəqədər təhsil müəssisələrində maksimal dərəcədə komfort şəraitin yaradılması məsələsini ön plana çəkir. Məktəbəqədər təhsilin əsasını uşaqların əqli-fiziki sağlamlığını qoruyan və möhkəmləndirən amillərin təşkil etməsi zəruridir.

Uzun illər ərzində məktəbəqədər təhsil müəssisələrinin qarşısında duran vəzifə uşaqların hərtərəfli inkişaf etdirilməsi olmuş, onların şəxsi keyfiyyətləri, mədəniyyət və əxlaq səviyyəsi ikinci plana keçmişdir. Təhsil və tərbiyədə prioritet istiqamət bilikdir, lakin məlumdur ki, bilik özlüyündə heç də insanın ruhi və mənəvi keyfiyyətlərinə zəmanət deyildir. Çox vaxt bilik uşağın əxlaqi, psixi və fiziki sağlamlığına zəmanət vermir. Bu, biliklər əsas məqsədə çevrildikdə baş verir.

Aydındır ki, insana bilik lazımdır, lakin bu əsas məqsəd deyil. Bilik uşaq şəxsiyyətinin inkişaf etdirilməsi üçün vasitə, onun həyati məsələləri həll edə bilməsi üçün bir alət kimi lazımdır. Tərbiyə və təhsilin məqsədi uşağı fiziki, ruhi və mənəvi cəhətdən inkişaf etdirmək olmalıdır.

Tərbiyə və təhsil uşaqda özünə – öz bədəninə, qəlbinə və ağlına məsuliyyətlə yanaşma kimi tərbiyəvi xüsusiyyətləri formalaşdırır. Hazırlıq səviyyəsində sağlam olmaq – bu hazırlıq sağlam olmaq tələbatından (*istəyirəm*); özü ilə və ətraf aləmlə münasibət qurmaq qabiliyyətindən (*bacararam*); təbiət qanunlarına uyğun yaşamaq (*yaşayacağam*) qabiliyyətindən irəli gəlməlidir.

Valeologiya bu problemləri həll edə, yəni sağlamlığın qorunması mövqeyindən bütün təlim-tərbiyə prosesini yenidən qiymətləndirməyə kömək edə bilər. Bunun üçün bütün pedaqoqlar sağlamlığın qorunub saxlanması və möhkəmləndirilməsi proseslərinin idarəolunma texnologiyalarına yiyələnməlidirlər.

"Yerli və xarici təcrübənin öyrənilməsindən belə qənaətə gəlmək olur ki, məktəbəqədər təhsil müəssisələrində, qismən də olsa, valeologiya metodları ilə rejimin tənzimlənməsi məqsədəmüvafiqdir. Təlimin optimallaşdırılması prosesində valeoloji monitorinqin keçirilməsi uşaqların psixofizioloji gərginliyi və əsəbilik səviyyəsinin aşağı salınması ilə nəticələnir. Valeoloji maarifləndirmə, sağlam həyat tərzinin təbliği və fiziki mədəniyyətlə yanaşı bu işin aparılması uşaqların sağlamlığında müsbət nəticələr əldə etməyə imkan verir" [Baxışova Ş., 2015].

## Əsas hissə / Main part

Valeologiya uşağa özü (öz bədəni, qəlbi, ağlı) ilə, insanlarla, bütün ətrafla münasibət qurmağı öyrədir. Valeologiya insan sağlamlığına onun öz (özünü düşünmə, özünüdərk, özünü sağlamlaşdırma, özünü təkmilləşdirmə) mövqeyindən yanaşır. Buna görə də valeologiyanın mövzusu insan səhhətinin qanunauyğunluqları, orqanizmin xüsusiyyətləri, imkanları haqqında bilgiləri, sağlamlığın qorunub saxlanılması, dəstəklənməsi və yaxşılaşdırılmasının, bacarıq və texnikasına yiyələnmə üzərində qurulan sağlamlığın yaradılması prosesidir.

Sağlamlıq valeologiyanın ən vacib kateqoriyasıdır. Bu kateqoriyanı anlamaq üçün aşağıda göstərilən əsas anlayışlara nəzər salaq:

1) *Sağlamlıq* anlayışına insan mədəniyyətinin sahəsi kimi üç tərkib hissəsi: bədən, qəlb və ağlın vəhdəti daxildir. Buna görə də səhhət – bədən tərbiyəsi (öz hərəkətlərini, öz bədənini idarə etmək qabiliyyəti); fizioloji tərbiyə (orqanizmdə baş verən fizioloji prosesləri idarə etmək qabiliyyəti); psixi tərbiyə (öz duyğu, hiss, emosiyalarını idarə etmək); intellektual tərbiyə mədəniyyəti (öz düşüncələrini idarə etmək qabiliyyəti) toplusudur.

2) İnsanın sağlamlığı – onun şəxsi fəaliyyətinin nəticəsidir.

3) Sağlamlığın səviyyəsi insanın həyati qüvvələrinin həcmi, ehtiyatı ilə təyin olunur; sağlamlığın yolu – həyati qüvvələrin toplanması, qorunub saxlanması və gücləndirilməsi yoludur.

4) Sağlamlıq – orqanizmin adaptasiya imkanlarının səviyyəsi, onun xarici təsirlərə adekvat reaksiya verməsi və yaranan həyat şəraitinə uyğunlaşma bacarığı, dəyişən şəraitdə (ekoloji, sosial və s.) insanın həyati qüvvələrinin sabitlik dərəcəsidir.

5) Hər bir insanın sağlamlığı onu əhatə edən insanların sağlamlığından asılıdır.

6) Təhsil sistemi uşağın və bütövlükdə bəşəriyyətin sağlamlığının yaradılması mexanizmidir, çünki hər bir insan onunla bütün ömrü boyu bağlıdır [Cəfərov H., 2020].

Ümumiyyələ, səhhətin əlamətləri aşağıdakılardan ibarətdir:

• zədələyici amillərin təsirinə spesifik (immun) və qeyri-spesifik sabitlik;

• artım və inkişaf göstəriciləri;

• orqanizmin funksional vəziyyəti və ehtiyat imkanları;

• hər hansı bir xəstəliyin və inkişaf qüsurunun olması və onun səviyyəsi;

• mənəvi-iradi və dəyər-motivasiya quruluşlarının səviyyəsi.

İnsanların normal həyat sürməsi və fəaliyyət göstərməsi üçün bir çox amillərin, xüsusən sağlamlığın yerində olması vacibdir. İnsan sağlam olmasa, heç bir normal fəaliyyətdən və inkişafdan söhbət gedə bilməz. Sağlamlıq dedikdə, yalnız fiziki deyil, eyni zamanda əqli sağlamlıq nəzərdə tutulur.

Sağlamlıq cəmiyyət tərəfindən müəyyən olunmuş dinamik bir anlayış olduğu üçün onun müəyyən və standart tərifi mövcud deyil. Daha geniş mənada desək, sağlamlıq aşağıdakı konseptual modellərin çoxunun bir arada olması deməkdir:

– insan orqanizminin xarici və daxili tarazlığının olması;

– insan bədənində xəstəliklərin olmaması;

– normal yaşamaq və fəaliyyət göstərmək bacarığı;

– sosial rifahın olması.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) sağlamlığın tərifini belə vermişdir: *"*Sağlamlıq fiziki, əqli və sosial rifahın bütöv bir şəkildə mövcud olması, xəstəliklərin və bəlanın insan bədənindən uzaq olmasıdır. İnsan sağlamlığı, həmçinin yaşayış şəraiti və resursların mövcudluq dərəcəsindən asılı olaraq dəyişir, bunlara yaşamaq üçün yer, müvafiq təhsil, ərzaq təminatı, maddi gəlir, sülh və əmin-amanlıq, sosial ədalət, bərabərlik və səmərəli ətraf mühit daxildir"[1].

Sağlamlığı xarakterizə edən əsas amillərdən biri də insanın öz səhhəti ilə onu müəyyən edən kənar amillərin qarşılıqlı əlaqəsidir. Həmin kənar amillərin təsirindən asılı olmayaraq, əsas məsuliyyət hər bir fərdin öz üzərinə düşür və hər bir şəxs öz sağlamlığını özü təmin etməlidir. İnsanlar öz iqtisadi və siyasi səviyyələrindən asılı olmayaraq sosial mühitlərini fərdi şəkildə özləri idarə edir və tənzimləyirlər.

İnsan sağlamlığına təsir edən amillər üç hissəyə bölünür: həyat tərzi, ətraf mühit və bio-tibbi amillər. Həyat tərzinə yaşamaqla bağlı fərdi şəkildə verilmiş qərarlar daxildir. Bu qərarlar normal həyat yaşamaq məqsədi ilə verilsə də, bəzən xəstəliklərə, hətta ölümə də yol aça bilər. Ətraf mühit amillərinə insan orqanizminə təsir edən kənar ünsürlər daxildir. İnsanlar bu ünsürləri fərdi şəkildə idarə edə bilmirlər. Bunlara hava, su, iqlim və digər ətraf mühit amillərini aid etmək olar. *Bio-tibbi* amillərə isə insan orqanizmində genetik olaraq yaranan, həmçinin fiziki və əqli sağlamlıq da daxil olmaqla mövcud olan bütün tibbi amillər daxildir. Bunlara anadangəlmə və ya sonradan formalaşan müxtəlif xəstəliklər, virus-

[1] https: //un.mfa.gov.az

lar və ya insan orqanizminin fəaliyyət göstərməsi üçün lazım olan həyati ünsürlər daxildir. Sağlamlıq fiziki, psixoloji və sosial komponentlərin mürəkkəb, səmimi və qarşılıqlı münasibətdə ifadə olunduğu çoxsaylı bir amil kimi başa düşülməlidir. İnsan fiziki patologiyası olmadığı, lakin hissiyyat problemləri yaşadığı, və ya sosial, mədəni mühitdən təcrid olunduğu zaman sağlam hesab edilə bilməz.

Sağlamlığın təmin edilməsi fiziki, əqli və sosial rifahın kombinasiyası şəklində həyata keçirilir. Bunların hamısı birlikdə *sağlamlıq üçbucağı* adlanır. "Fiziki sağlamlıq insanın sağlam bədənə malik olması deməkdir. Fiziki sağlamlığı qorumaq üçün müntəzəm şəkildə fiziki fəaliyyətlə məşğul olmaq (idman), düzgün qidalanmaq və normal istirahət etmək lazımdır. Əgər insan normal qidalanarsa, yaşayış səviyyəsi artarsa və keyfiyyətli səhiyyə xidməti ilə təmin olunarsa, onun bədəni fiziki cəhətdən sağlam olacaqdır" [İsmayılov V., 2023].

V.P.Petlenkonun fikrincə, insanın həyat tərzi onun konstitusiyasına uyğun olmalıdır, konstitusiya isə orqanizmin genetik potensialı, irsiyyət və ətraf mühitin məhsulu kimi başa düşülür. Konstitusiya həmişə fərdidir: insanların sayı qədər həyat tərzi var. Bir insanın konstitusiyasını müəyyən etmək hələ də çox çətindir, lakin onu qiymətləndirmək üçün bəzi üsullar hazırlanmış və təcrübədə tətbiq olunmağa başlanmışdır [Petlenko V.P., 1999].

Əqli sağlamlıq insanların koqnitiv, emosional rifahı və əqli pozulmalarının olmaması anlamına gəlir. ÜST-ün tərifinə görə, əqli sağlamlıq "insanların öz bacarıqlarını dərk etməsi, həyatda baş verən streslərə müqavimət göstərməsi, məhsuldar fəaliyyət göstərməsi və öz cəmiyyətinə töhfə vermək bacarığının olması" kimi xarakterizə olunur.

Sosial rifah insanların normal şəkildə yaşaması üçün tələb olunan şəraitin və vasitələrin lazımi şəkildə mövcud olmasıdır. Sosial ünsürlərə insanların rifah halının yaxşılaşdırılması, insanların yoxsulluq səviyyəsinin tədricən aradan qaldırılması, onların keyfiyyətli təhsil almaları, səmərəli və ekoloji baxımdan təmiz mühitdə yaşamaları, insanlarla münasibəti daxildir. Qeyd edilən amillər vəhdət şəklində mövcud olduqda insanların sağlam yaşamaları mümkündür. Əgər bu amillərdən hər hansı biri çatışmırsa, tam şəkildə sağlam olmaq qeyri-mümkündür.

İnsanlarda baş verən xəstəliklərin, zədələnmələrin, fiziki, əqli çatışmazlıqların diaqnostikası, müalicəsi və onların qarşısının alınmasında səhiyyə xidmətinin rolu böyükdür. Tibbi xidmət müvafiq təhsil almış və təcrübəyə malik ixtisaslaşmış səhiyyə işçiləri tərəfindən həyata keçirilir ki, buraya ilkin, ikinci və üçüncü dərəcəli tibbi xidmət sahəsində görülən işlər daxildir.

Alimlər tərəfindən valeologiyanın təyin edilməsi hər bir insana xas olan sağlamlıq potensialının təşkilati prosesi hesab olunur. Uşaq bağçası kontekstində valeoloji təhsilin məqsədləri:

– uşaqları "sağlam həyat tərzi", "təhlükəsiz həyatın əsasları"anlayışları ilə tanış etmək;

– oğlanlar və qızlar arasında münasibətlər mədəniyyətini, emosional ünsiyyəti inkişaf etdirmək;

– bədən tərbiyəsi və idman;

– şəxsi gigiyena bacarıqlarının formalaşması;

– insan sağlamlığına qayğının tərbiyə olunması.

Valeoloji təhsilin vəzifələri, məqsədlər kimi, müxtəlif yaş qrupları üçün eynidir. Valeoloji biliklərin rahat mənimsənilməsi üçün tədrisin istiqamətləri struktur bloklara bölünür.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların sağlamlığının qorunmasının və möhkəmləndirilməsinin müvəffəqiyyətlə həyata keçirilməsi, bu işdə yüksək səmərə əldə edilməsi məqsədi ilə uşaq orqanizminə elmi cəhətdən əsaslandırılmış vasitələrlə, plana uyğun və kompleks təsir göstərilir.

Bu vasitələr aşağıdakı kimi qruplaşdırılır:

– gigiyenik faktorlar (gün rejiminə riayət olunması, düzgün qidalanma, mədəni, gigiyenik bacarıq və vərdişlərin formalaşdırılması);

– təbii amillərdən istifadə (su, hava, günəş vannası və s.);

– fiziki hərəkətlər.

Bu qruplaşma əsas götürülür və məktəbəqədər təhsil müəssisələrində fiziki sağlamlığın aşağıdakı vasitələrindən istifadə olunur:

– gün rejimi;

– düzgün qidalanma;

– mədəni-gigiyenik bacarıq və vərdişlərin formalaşdırılması;

– su, hava və günəş vannaları;

– gimnastika və hərəkətli oyunlar.

Düzgün qidalanma, uşaqların sağlamlığının möhkəmləndirilməsi, qorunması və orqanizmlərinin fizioloji və psixi funksiyalarının təkmilləşdirilməsində gün rejiminin böyük əhəmiyyəti vardır [Zeynalova Z., Cəmilzadə S., 2013].

İ.P.Pavlov orqanizmin reflektor fəaliyyətə cavab verməsində vaxt amilinin əhəmiyyətini göstərmiş və uşaq həyatının bütün proseslərinə ayrılan vaxtın düzgün bölüşdürülməsi və rejimin dəqiq yerinə yetirilməsinin əhəmiyyətini sübut etmişdir. Əgər qıcıqlandırıcı amillər mənfi təsir göstərirsə, hər rejim proseduru üçün ayrılan vaxt gözlənilmirsə, uşağın qarşısında fərqli tələblər qoyulursa, onda rejimin yerinə yetirilməsi uşaqdan böyük qüvvə tələb edir.

Tədqiqatlar göstərir ki, sinir sistemi zəif olan azyaşlı uşaqlarda qıcıqlandırıcı amillərin tətbiqində qaydalara riayət olunma böyük əhəmiyyət kəsb edir. 6 aya qədər uşağın qidalanma, yuxu və oyaqlıq dövrünün növbələşməsində ardıcıllığın böyük əhəmiyyəti vardır. Şəraitin dəyişilməsi uşağa təsir etmir, lakin qeyd olu-

nan proseslərin ardıcıllığının pozulması uşağa kəskin mənfi təsir göstərir. Ona görə də bu yaşda uşağın məktəbəqədər müəssisəyə qəbul olunması onun sonrakı yaşları ilə müqayisədə çətin olmur.

Düzgün rejim baş beyin qabığının normal iş qabiliyyətinə kömək edir, uşağın tərbiyə və təliminin müvəffəqiyyətlə həyata keçirilməsi üçün normal şəraiti təmin edir. Normal böyüyən və inkişaf edən orqanizm öz fizioloji ehtiyaclarının ödənilməsini (yuxu, açıq havada gəzinti, hərəkət, qida və s.) tələb edir. Fizioloji ehtiyacların istər kəmiyyət, istərsə də keyfiyyət cəhətdən təmin edilməməsi bütün həyati proseslərin gedişinə süstlük gətirir ki, bu da ali sinir fəaliyyətinə mənfi təsir göstərir və baş beyin qabığının funksiyasının fəaliyyətini aşağı salır. Nəticədə, orqanizmin müqaviməti zəifləyir, bu isə xəstəliyə gətirib çıxarır. Böyüməkdə olan orqanizmin fizioloji ehtiyaclarının istər kəmiyyət, istərsə də keyfiyyətcə çatışmazlığı psixi proseslərə (təfəkkür, qavrama, hafizə və s.) kəskin mənfi təsir göstərir.

Düzgün qurulmuş rejimin ailədə, məktəbəqədər müəssisələrdə ciddi şəkildə yerinə yetirilməsi uşağı tez yorulmaqdan, əsəb sisteminin zəifləməsi və bununla əlaqədar qeyri-mütəşəkkil davranışdan, mənfi hallardan qoruyur. Tərbiyəçi-müəllim uşağı diqqətlə müşahidə etməli və onun tez yorulmasının səbəbini müəyyənləşdirməlidir. Gün ərzində oyun və məşğələlərin növbələşdirilməsi uşaqları mütəşəkkil fəaliyyətə öyrətməklə yanaşı, mərkəzi sinir sistemini yorğunluqdan qoruyur və fəaliyyətlər dəyişilərkən yorulmuş əsəb hüceyrələri öz fəaliyyətlərini bərpa edir.

"Uşaq təbiətinin əsas qanununu belə ifadə etmək olar: uşaqlar dayanmadan fəaliyyət tələb edir və onlar fəaliyyətdən yox, onun eyniliyi və birtərəfli olmasından yorulurlar. Uşağı oturmağa məcbur etdikdə o, çox tez yorulacaq və uzanmağa məcbur etdikdə – yenə də həmin hadisə baş verir. O, uzun müddət yol gedə bilmir, uzun müddət susa bilmir, nəğmə oxuya və kitab oxuya bilmir və bir şey haqqında uzun müddət fikirləşə bilmir, lakin o, gün ərzində gülüb-oynayır, hərəkət edir, bütün bu fəaliyyətləri dəyişdirir, qarışdırır və bir dəqiqə belə yorulmur. Növbəti günə yeni qüvvə ilə başlamaq üçün uşağın lazımi qədər möhkəm yuxu sistemi olmalıdır" [Ushinski K.D., 1961].

Məktəbəqədər təhsil müəssisələrində təlim prosesinin idarə olunmasında uşaqların təlim yükünün düzgün müəyyənləşdirilməsi mühüm məsələdir. Təlim yükü dedikdə, uşaqların hər hansı yaş mərhələsində mənimsədikləri bilik, bacarıq və vərdişlərin həcmi nəzərdə tutulur. Uşaqların təlim yükünün düzgün müəyyənləşdirilməsi üçün onların imkanları nəzərə alınmalıdır. Təlim yükü uşaqda təlimə, tərbiyəçi-müəllimə qarşı xoşagəlməz hisslər yaratmamalıdır. Uşağa istəmədiyi, xoşlamadığı işi gördürmək onun üçün ağır yük sayılır. Ona görə də uşaqların fərdi xüsusiyyətlərini, arzu və istəklərini nəzərə alaraq təşkil edilən məşğələnin

maraqlı və canlı olması zəruridir.

Uşaqların təlim yükünün müəyyən olunmasında yaranan çətinliklərin əksəriyyəti qruplarda komplektləşdirmənin düzgün aparılmamasından irəli gəlir. Apardığımız müşahidələrdən aydın olur ki, bu sahədə müəyyən nöqsanlar mövcuddur. Belə ki, bəzi məktəbəqədər təhsil müəssisələrində müxtəlif yaşlı uşaqları bir qrupa yerləşdirirlər. Bu zaman kiçik yaşlı uşaqlar təlim yükünün yerinə yetirilməsində çətinlik çəkirlər. Ona görə də qrupa eyni yaşlı uşaqların cəlb olunması daha məqsədəuyğundur.

Müşahidələr bu qənaətə gəlməyə əsas verir ki, uşağın yaşını, inkişaf və dərketmə səviyyəsini dəqiq öyrənmədən bəzi tərbiyəçi-müəllimlər humanistlik edərək onu ən adi çətinlikdən qorumaq məqsədi ilə, onun təlim yükünü son dərəcə azaltmağa üstünlük verirlər. Bu zaman onlar unudurlar ki, təlim yükünün həddən artıq yüngülləşdirilməsi uşağı arxayınlaşdırır, inkişafdan saxlayır. Uşaq hər şeyi bildiyini zənn edir, onda öyrənmək, çətinliyi aradan qaldırmaq səyi formalaşmır.

Uşaq orqanizmində gedən fizioloji proseslərin təbii ritminin öyrənilməsinə əsasən uşağın gün rejimində onların yuxusu və fəaliyyəti üçün kifayət qədər vaxt nəzərdə tutulmalıdır ki, bu da uşaqların sağlamlığının möhkəmləndirilməsi, düzgün fiziki və əqli inkişafı üçün optimal şərait yaradır. Rejimdə möhkəmləndirici prosedurlar üçün də (açıq havada gəzinti, günəş, su vannaları və s.) müəyyən vaxt ayrılmalıdır. Belə ki, rejim orqanizmin düzgün həyat fəaliyyəti və bütün orqan və sistemlərinin dəqiq fəaliyyət göstərməsinə imkan verir və uşağın düzgün fiziki inkişafı üçün şərait yaradır. Bu isə uşağın sağlamlığı üçün zəruridir. Məktəbəqədər təhsil müəssisələrində gün rejiminin yerinə yetirilməsi uşaqların fiziki tərbiyəsində yüksək səmərə verməklə yanaşı, eyni zamanda onların ahəngdar inkişafını təmin edir. Bunu əldə əsas tutaraq, harada uşaq varsa, orada rejim, onun düzgün qurulması və yerinə yetirilməsinə diqqətli münasibət olmalıdır. Uşaq orqanizminin fiziki inkişafında mədəni-gigiyenik bacarıq və vərdişlərin tərbiyə olunmasının mühüm əhəmiyyəti vardır. Erkən uşaqlıq dövründən başlayaraq uşaqları yeməkdən əvvəl əlləri yumaq, yemək yeyərkən səliqəli olmaq, qaşığı sağ əldə və düzgün tutmaq, salfetdən istifadə, süfrə arxasından qalxarkən təşəkkür etmək kimi elementar bacarıqlara yiyələndirmək vacibdir. Məhz bu bacarıqlar tədricən vərdişlərin formalaşmasına səbəb olur.

Məlum olduğu kimi, uşağın sinir sistemi elastikliyi ilə fərqlənir. Buna görə də uşaqlarda lap kiçik yaşlardan sağlamlıq üçün lazım olan mədəni-gigiyenik bacarıq və vərdişlərin tərbiyə olunması vacibdir. Uşaq öz həyatının ilk üç ilində artıq bir sıra elementar bacarıqlara (əlləri yumaq, yeməyi sağ əllə və səliqə ilə yemək, paltarları səliqə ilə qatlamaq və s.) yiyələnir, lakin bu bacarıqlar hələ tam sabitləşməyib. Mədəni-gigiyenik bacarıq və vərdişlərin formalaşdırılması işinin bütün yaş dövrlərində aparılmasının tələb edilməsi də bu bacarıqların hələ sabit-

ləşməməsindən irəli gəlir. Buna görə də müxtəlif yaş dövrlərində mədəni-gigiyenik bacarıq və vərdişlərin formalaşdırılması işinin təkmilləşdirilməsi həmişə vacib şərt kimi qarşıda durur. Burada əsas rol tərbiyəçi-müəllimlərin üzərinə düşür. Onlar izahat və nümayiş etdirmə üsullarından istifadə etməklə uşaqlarda mədəni-gigiyenik bacarıq və vərdişlərin tərbiyə olunmasına çalışmalıdırlar. Uşaqlarda təmizkarlıq və səliqəliliyin tərbiyə olunması üçün onlara mədəni-gigiyenik bacarıq və vərdişlərin yerinə yetirilməsinin öyrədilməsi, bunun üçün müvafiq fəaliyyətlərin təşkil edilməsi məqsədəuyğundur. Bu zaman əsas məsələ odur ki, uşaqların həm özləri, həm də onları əhatə edən əşyalar təmiz saxlanılmalıdır.

Məktəbəqədər yaş dövründə fiziki və əqli sağlamlığın təməlinin qoyulması vacibdir. Uşaqlarda 6 yaşa qədər olan dövrdə orqanlar, bədənin funksional sistemi intensiv inkişaf edir, onlarda xarakter, özünə və başqalarına münasibət formalaşır. Məktəbəqədər təhsilin tədris prosesində sağlamlığa xidmət edən texnologiyaları aşağıdakı növlərə ayırmaq olar:

- tibbi və profilaktik;
- fiziki və sağlamlaşdırıcı;
- uşağın sosial-psixoloji rifahının təmin edilməsi;
- tərbiyəçi-müəllimlərin sağlamlığına nəzarət və onun möhkəmləndirilməsi;
- valideynlərin valeoloji tərbiyəsi.

Məktəbəqədər təhsil müəssisəsində uşaqların sağlamlıq vəziyyətinin monitorinqin tələblərinə əsaslandırılan tədbirlər təşkil olunur. Bunlar aşağıdakılardan ibarətdir:

- məktəbəqədər təhsil müəssisəsi həkiminin (tibb işçisi) tərbiyəçi-müəllimlə birlikdə uşağın uyğunlaşma dövrünü qiymətləndirməsi və valideynlərə tövsiyələri;
- uyğunlaşma dövrünün əlverişli gedişinə yönəldilmiş tibbi və təhsil kompleks tədbirləri;
- uşaqların profilaktik müayinəsinin təşkili və aparılması üçün məktəbəqədər müəssisənin tibbi heyətinin məlumatlandırılması;
- uşaqların fiziki inkişafının monitorinqi (tibbi heyətlə birlikdə);
- uşaqların bədən tərbiyəsinin təşkili və möhkəmləndirilməsi, onların fiziki inkişaf səviyyəsinin müəyyən edilməsi (tibbi heyətlə birlikdə);
- uşaqların qidalanmasının monitorinqi və məktəbəqədər müəssisədə pəhriz ehtiyaclarının təmin edilməsi (tibbi heyətlə birlikdə);
- gündəlik fəaliyyət rejiminə riayət olunması.

Məktəbəqədər təhsil müəssisəsində aşağıda göstərilən məqamları əhatə edən, istirahət üçün geniş kompleks tədbirlər həyata keçirilir:

1. temperatur rejimi və havalandırmaya uyğunluq;
2. məktəbəqədər müəssisədə (müəssisə daxilində) yüngül geyim;

3. səhər gimnastikası;

4. yuxudan oyandıqdan sonra gimnastika;

5. möhkəmləndirmə prosedurları (uşaqların yaşına uyğun);

6. gəzintilərin düzgün təşkili və müddəti (uşaqların mövsümi geyimlərə riayət etməsi və valideynlərlə iş);

7. təmiz havada bədən tərbiyəsi hərəkətlərinin icrası;

8. vitamin profilaktikası (tibbi heyətlə birlikdə);

9. uşaqlarla səs, artikulyasiya gimnastikası, loqoritmika (loqoped və musiqi rəhbərinin iştirakı ilə) və s.

Sadalanan problemlərin tənzimlənməsi üçün məktəbəqədər təhsil müəssisəsinin rəhbəri, tərbiyəçi-müəllim və tibb işçisi birgə fəaliyyət göstərməlidirlər. Bu zaman müəyyən müşahidə vərəqələri və protokolları tərtib edilir. Hər yaş qrupu üçün mədəni-gigiyenik bacarıqlar və özünəxidmət vərdişlərinin formalaşdırılmasına dair müşahidə vərəqələri, masa arxasında mədəni-gigiyenik bacarıqlara riayət olunması, filtr dəftərləri, gəzintinin düzgün təşkilinə dair dəftərlər və eyni zamanda tibbi göstəricilərin qeyd edilməsi üçün müxtəlif sənədlər nəzərdə tutulur.

Tərbiyəçi-müəllimin təşkil etməli olduğu sağlamlıq və gigiyena işinin nümunələrinə nəzər salaq. Məsələn, orta qrupun uşaqlarında bilik və bacarıqların həcmini və səviyyəsini öyrənmək üçün, ilk növbədə, tərbiyəçi-müəllim müvafiq şəraiti müəyyənləşdirməlidir. Qrupdakı uşaqların mədəni və gigiyenik bacarıqlarını müəyyən etmək üçün müşahidə aparmalı və nəticələri müşahidə vərəqələrində qeyd etməlidir. Bu zaman tərbiyəçi-müəllim aşağıdakıları nəzərə almalıdır.

– Orta yaş qrupunun uşaqları üçün müəyyən edilən mədəni və gigiyenik bacarıqları – yuyunma, yemək, geyinmək, əl dəsmalından istifadə, paltarın və saç düzümünün səliqəsinə diqqət yetirmək kimi tələbləri müəyyənləşdirməlidir.

– Orta yaş qrupundan olan uşaqların bacarıqlarında ardıcıllığı, sürəti, keyfiyyəti müəyyənləşdirməli və qiymətləndirməlidir.

– Qrupdakı uşaqlarda mədəni və gigiyenik bacarıqların formalaşdırılması üçün yaradılan şəraiti müəyyənləşdirməlidir.

– Qrupda mədəni və gigiyenik bacarıqların təşkili formalarını, tədris və təlim metodlarının spesifikliyi və effektivliyini müəyyən etməlidir.

Müstəqil fəaliyyət, təlim və oyun prosesində mədəni və gigiyenik bacarıqlar, ilk növbədə, uşaqlar tərəfindən mənimsənilir. Bu baxımdan, bütün yaş qruplarından olan uşaqlara mədəni və gigiyenik bacarıqların aşılanması üçün tərbiyəçi-müəllim nümayiş, nümunə, izah, söhbətlər, rollu-sujetli, didaktik oyunlardan geniş istifadə edir. Oyun üsullarından çox istifadə olunmalıdır. Tərbiyəçi-müəllim müşahidələrinin nəticələrini ailə ilə bölüşməli və valideynlərlə zəruri məsləhətləşmələr aparmalıdır.

Valideynlərin valeoloji biliklərinin olması uşaq dözümlülüyünün, müşahidəçiliyin, məntiqi təfəkkürün sadə formalarının inkişafına kömək edir, uşaq oyunu və əməyinə rəhbərlikdə özünü göstərir, onların hərəkətlərinin səbəblərini araşdırmağa şərait yaradır. Uşaqların fiziki inkişafı haqqında valideynlərin biliyi, nəinki onların sağlamlığını qorumağa, həm də onların hərəkətlərinə, mədəni-gigiyenik vərdişlərə, ünsiyyət mədəniyyətinə yiyələnmələrinə məqsədyönlü şəkildə kömək edir.

Məktəbəqədər təhsil müəssisəsi və ailənin birgə fəaliyyəti, əməkdaşlığı uşaqların hərtərəfli inkişafı üçün münbit şərait yaradır.

Valideynlərin valeoloji təhsilinin vəzifələrinə aşağıdakılar daxildir:

• uşağın fiziki, mənəvi və psixomotor inkişafının diaqnostikasının nəticələrinin valideynlər ilə birlikdə nəzərdən keçirilməsi;

• uşaqların istirahət tədbirlərinin planlaşdırılmasında valideynlərin fəal iştirakı;

• qrupda bədən tərbiyəsi və sağlamlaşdırıcı tədbirlərin istiqamətləri ilə ailənin tanış edilməsi;

• valideynləri uşaqların sağlam böyüməsi, düzgün qidalanması, fiziki hazırlığı, ətraf mühitdən mənəvi aləmə qədər bir çox faktorlardan asılı olması haqqında məlumatlandırmaq [Cəfərov H., İsmayılova E., 2020].

Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı tədbirləri həyata keçirmək olar:

• "Valeologiya – sağlamlıq elmidir!", "Valeologiya məşğələlərinin məqsədi","Məktəbəqədər yaşlı uşaqların valeoloji tərbiyəsi sağlam həyat tərzinin formalaşması amili kimi" və s. mövzularda dəyirmi masaların təşkil olunması;

• valideynlərin sağlamlıq məsələləri ilə bağlı bütün zəruri məlumatlarla təmin edilməsi;

• psixoloqun, həkimlərin, bədən tərbiyəsi müəlliminin iştirakı ilə dəyirmi masaların təşkili (məsələn, uşaq üçün hansı idman növünü seçmək və nə vaxt başlamaq barədə bir çox valideynlər üçün aktual olan suallar ətrafında müzakirələr);

• seminarların keçirilməsi (məsələn, 4–5 yaşlı uşağın yeməkdən əvvəl əllərini yumağı unutması faktı ilə necə məşğul olmaq olar?);

• videomateriallardan əldə edilən məlumatların müzakirəsini, uşaqlarla söhbətləri əhatə edən təlimlər;

• "Açıq qapı" günü, belə günlərdə fiziki mədəniyyət məşğələlərinin, uşaqların valeoloji təhsilinin, habelə düzgün rejimin və asudə vaxtın təşkili;

• birgə əyləncələrin, bayramların keçirilməsi.

Valeologiya üzrə məşğələlərin aparılması metodikasının hazırlanması məqsədəuyğundur. Valeoloji məşğələlərin mövzusu hər bir yaş qrupu üçün təqvim-te-

matik planla müəyyən edilir:

• birinci kiçik qrup üçün mövzuların kartotekası;

• ikinci kiçik qrup üçün mövzuların kartotekası;

• orta qrup üçün mövzuların kartotekası;

• böyük qrup üçün mövzuların kartotekasi;

• hazırlıq qrupu üçün mövzular faylı [https://azertag.az/xeber/Mektebeqeder tehsil haqqında Azerbaycan Respublikasının Qanunu-1071133].

Valeoloji məşğələlər məktəbəqədər təhsil müəssisəsində, digər qruplar kimi, eyni metodika əsasında aparılır, yəni onların strukturu və vaxtı eynidir. Bu məşğələlərin keçirilməsində məqsəd uşaqların öz bədənləri, sağlamlıqları və həyat üçün təhlükəli vəziyyətlər haqqında təsəvvürlərini genişləndirmək, onları şəxsi gigiyena bacarıqlarına, şifahi ünsiyyət qaydalarına, asudə vaxt mədəniyyətinə yiyələndirməkdir.

Valeoloji məşğələlərin keçirilməsi üsulu strukturuna görə adi məşğələlərdən fərqlənmir. Yeganə fərq məzmun baxımından daha dolğun olmasıdır, çünki onlar mövzunun işlənməsinin bu mərhələlərinin təqdimatla birləşdirildiyi adi qruplardan fərqli olaraq, bilik, bacarıq və vərdişlərin ümumiləşdirilməsini və sistemləşdirilməsini əhatə edir.

## Nəticə / Conclusion

Beləliklə, bu nəticəyə gəlirik ki, hazırda tərbiyəçi-müəllimlərin qarşısında duran prioritet vəzifələrdən biri də təlim və tərbiyə prosesində uşaqların sağlamlığının qorunmasıdır. Sağlam həyat tərzi əvvəlcə ailədə, daha sonra məktəbəqədər təhsil müəssisələrində formalaşmağa başlayır. Gələcək nəslin fiziki cəhətdən möhkəm, sağlam olması üçün ölkəmizdə məktəbəqədər təhsil müəssisələrində lazımi optimal şərait yaradılmalı, sağlamlaşdırıcı gigiyenik tədbirlər həyata keçirilməlidir.

Məktəbəqədər dövrdə sağlamlığın, ahəngdar fiziki inkişafın əsası qoyulur. Bu dövrdə düzgün təşkil edilmiş fiziki tərbiyə məşğələləri sağlam bədən quruluşunun formalaşmasına, orqanizmin möhkəmlənməsinə, daxili orqanların fəaliyyətinin yaxşılaşmasına şərait yaradır.

Uşaqların sağlam, hərtərəfli inkişafı üçün tərbiyəçi-müəllimin valeoloji təhsili həyata keçirməsi, uşaqlarla böyüklər arasında şəxsiyyətyönümlü əməkdaşlığın yaradılması, valideynlərin uşaqların təlim-tərbiyəsi prosesində fəal iştiraklarının təmin olunması əsas məsələlərdəndir, çünki valeologiya səhhət haqqında, onun formalaşdırılması və qorunub saxlanması haqqında elmdir, tədris fənni kimi – səhhət və insanın sağlam həyat tərzi haqqında biliklər toplusudur. Valeologiya

fərdi sağlamlığa necə yanaşmalı, fərdi inkişaf prosesində mədəni vərdişləri necə tərbiyə etməli, orqanizmin ehtiyatlarını, onun əvəzləyici imkanlarını necə inkişaf etdirməli, necə sağlam həyat sürməli olduğumuzu izah edir.

Məktəbəqədər təhsil müəssisəsində valeoloji təhsili həyata keçirmək üçün düzgün təşkil olunmuş məşğələlər uşağın sağlamlığını qorumağa, həyati təhlükəsi olan vəziyyətlərə düşməməsinə kömək edəcəkdir. Valeoloji təhsil və tərbiyənin məqsədi uşaqların öz bədənləri, sağlamlıqları və həyat üçün təhlükəli olan vəziyyətlər haqqında təsəvvürlərini genişləndirmək, onlarda şəxsi gigiyena, ünsiyyət bacarıqları, asudə vaxt mədəniyyəti formalaşdırmaqdır.

Uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi, sanitar-gigiyenik qulluğun təminatı, təmiz havada çox olmaq, sağlamlaşdırıcı tədbirlərin keçirilməsi, rasional qidalanma, gimnastikanın, düzgün gün rejiminin təşkili (yuxu, asudə vaxt, təlim prosesi) və hərəkət aktivliyinin təmin olunması onların sağlam həyat tərzi keçirmələrini təmin edir.

Təhlükəli hallara və çətinliklərə hazır olmaq, yol hərəkəti qaydaları, ekstremal vəziyyətlərdə və təhlükəli situasiyalarda necə hərəkət etmək haqqında ilkin təsəvvürlərin formalaşdırılmasına, məişətdə ehtiyatlı, ictimai yerlərdə mədəni davranmaq, təbiət hadisələri və fövqəladə hallarda vəziyyətdən çıxış yollarının mənimsənilməsinə, ekoloji mədəniyyətin formalaşdırılmasına imkan yaradır.

**Məqalənin aktuallığı.** Hazırda tərbiyəçi-müəllimlərin qarşısında duran prioritet vəzifələrdən biri də təhsil və təlim prosesində uşaqların sağlamlığının qorunmasıdır. Sağlam həyat tərzinin formalaşması məktəbəqədər müəssisələrdən başlamalıdır. Böyüməkdə olan nəslin fiziki cəhətdən möhkəm, sağlam olması üçün ölkəmizdə məktəbəqədər təhsil müəssisələrinin optimal, yəni sağlamlaşdırıcı gigiyenik şəraitlə təmin olunması aktual problemdir.

Bir və birdən artıq qüsurlu uşağı olan ailələr ona görə riskli ailələr qrupuna daxil edilir ki, dizartriya elementləri belə ailələrdə tərbiyə olunan məktəbəqədər yaşlı uşaqlarda daha çox özünü göstərir. Valideynlərin birində və ya hər ikisində əqli gerilik, şizofreniya halları, eşitmə qüsurları müşahidə edilən ailələrdə yaşayan məktəbəqədər yaşlı uşaqlarda dizartriya halları özünü göstərir. Alkoqollu içkilərə və narkotik maddələrə aludə olan valideynlərin uşaqlarında da dizartriya xüsusiyyətləri müşahidə edilir.

Profilaktikası aparılan nitq inkişafının pozulmaları zamanı uşaqların dispanzerizasiyası xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda məktəb mühitinin imkanları, ailə üzvlərinin səmimiyyəti də nitq qüsurlarının istər qarşısının alınmasında, istərsə də aradan qaldırılmasında mühüm amillərdəndir. Məhz bu baxımdan, həm ailələrin, həm də uşaq müəssisələrinin ən mühüm vəzifəsi uşaqlarda nitqin inkişafına diqqət yetirməklə düzgün nitq bacarıqlarına malik nəslin yetişdirilməsini təmin etmək və ümumi inkişafa, yüksək mədəniyyətə malik şəxsiyyətlərin formalaşmasına nail olmaqdır. Qeyd olunan vəzifələrin layiqincə yerinə yetirilməsi üçün pedaqoji imkanlardan geniş istifadə etməklə uşaqlarda müşahidə olunan nitq qüsurlarının korreksiyasına nail olmaq və onların qarşısını əvvəlcədən almaq lazımdır. "Psixoloji cəhətdən qorunmayan və təsirlərə məruz qalan uşaqlar əsəbi olur, aqressivlikləri ilə seçilir və beləliklə, korreksiya prosesində qazanılanların hamısını itirmiş olurlar" [Sadıqov F., 2018]. Vurğulamaq lazımdır ki, ümumiyyətlə, nitq qüsurları özündə müxtəlif xüsusiyyətləri əks etdirən, müxtəlif formaları olan və xüsusi kliniki əlamətləri daşıyan anomaliyadır, hər hansı amorf qrup

deyil. Bu sahəni araşdıran tədqiqatçılar nitq qüsurlarından bəzilərini qruplaşdıraraq, müalicəvi tədbirlər həyata keçirmək üçün pedaqoji cəhətdən təsnifat işlərinə meyil göstərmişlər.

"1860-cı ildə ilk dəfə həkim Şultess nitq qüsurlarını 2 qrupda təsnif etmişdir. I qrupa bütün səs tələffüz qüsurlarının növlərini (*pəltəklik, dislaliya*) aid etmiş, II qrupa isə nitq ritminin və surətinin pozulması, nitqdə iştirak edən əzələlərin qıc olması ilə müşayiət olunan, nitq qüsurunu (kəkələmə) daxil etmişdir. Sonralar bu bölgü digər tədqiqatçılar tərəfindən daha da təkmilləşdirilmiş, hər bir qrupun özü yarımqruplara ayrılmışdır" [Əzizova Z., Cəfərova R., İsmayılov Ş., 2008].

Qeyd etmək lazımdır ki, nitq qüsurlarının başlanğıc mərhələsində qüsurların aradan qaldırılması istiqamətində müəyyən vasitələr müəyyənləşdirilmiş, metodlar işlənib hazırlanmışdır. Kliniki təsnifat üzrə nitq qüsurlarının aradan qaldırılması prosesindən istifadə olunmasına başlanıldı, lakin simptomatik xarakter daşıyan, prosesin təsvirinə daha çox yer verən bu təsnifat nitq qüsurlarının lazımi mexanizmini izah edə bilmədi. Qeyd olunan simptomun başlanğıc mərhələsində ali sinir fəaliyyəti (beyin sisteminin ali funksiyası olan nitq) və sinir sisteminin fizioloji məsələləri kifayət qədər öyrənilməmişdir.

Nitq qüsurlarının qruplaşdırılaraq öyrənilməsini ilk dəfə olaraq akademik İ.P. Pavlov müəyyənləşdirmişdir. Onun elmi araşdırmaları, xüsusilə beyinin böyük yarımkürələri üzrə etdiyi yeniliklər neyrofiziologiyada inqilab kimi qiymətləndirildi. Akademikin həyata keçirdiyi eksperimentlər nəticəsində həm heyvanların, həm də insanların ali sinir sisteminin qanunauyğunluqlarının mexanizmi və fəaliyyəti öyrənilmişdir. İ.P.Pavlovun fikrinə əsasən, dərketmənin reallaşması, siqnallar sistemində fizioloji mexanizm kimi prosesin həyata keçirilməsi, məhz bu prosesdə yalnız insana məxsus olan II siqnal sisteminin olması təsdiqlənmişdir [Hüseynov Ə., Babayev M., 2002].

Daha sonrakı araşdırmalarda beyinin ən dərin mexanizmi olan beyin gövdəsinin retikulyar formasiyasının əhəmiyyəti haqqında, əsəb fəaliyyətinin və nevrozların digər pozulmaları kimi, nitq patologiyasının ayrı-ayrılıqda formalarının xüsusiyyətlərini daha dərindən araşdırmaq imkanları yarandı və diferensial diaqnostikanın təkmilləşməsi, eyni zamanda nitq qüsurlarının təsnifləndirilməsi üçün geniş fürsətlər açıldı.

Müasir dövrün imkanları baxımından, nitqin hərtərəfli öyrənilməsi və araşdırılması daha da genişlənmişdir. Xüsusi elmləri qarşılıqlı şəkildə əlaqələndirərək tədqiqat aparılması, eyni zamanda linqvistika, pedaqogika, fiziologiya nöqteyi-nəzərindən nitq qüsurlarının öyrənilməsi, bu sahədə yarana biləcək anomaliyaların profilaktikasında və həlli istiqamətində əhəmiyyətli dərəcədə irəliləyişlərə səbəb olmuşdur.

Tərbiyəçi-müəllim nitq qüsurlarının patologiyasını öyrənmək üçün

valideynlərə uşağın normal inkişafında nitqin formalaşma mərhələlərinin ardıcıllığına nəzarət etməyi izah etmək lazımdır. Deyək ki, yaş yarımlıq uşaq danışa bilmir, bunun normal hal və ya patologiya olduğu müəyyənləşdirilməli, uşağın dilaçması, səslərdə, sözlərdə, ilk olaraq, nələri ifadə edəcəyi barədə valideynlərə məlumat verilməlidir. Bu, valideynlərə müəyyən bilgilər verər və onlar həm övladlarının nitq qüsurlarının düzgün diaqnostikasında, həm də nitqin inkişafına əsaslanan, qanunauyğun biliklərin qazanılmasında səmərəli şəkildə iştirak edə bilərlər. "Valideyn karandaş, rəsm albomu almaqla yanaşı, uşağın ondan istifadəsinə də kömək etməli, nöqsanları birlikdə aradan qaldırmalıdır" [Mərdanova R., 2020].

Üç yaşlı uşaqlarda yaranan nitq qüsurları nəzərə çarpan zaman mütəxəssislər loqopedə müraciət edilməsini tövsiyə edirlər, lakin aparılan müayinələr göstərir ki, nitq inkişafı normal gedir. Məhz həmin yaş dövründə bəzi səslərin tələffüzündə səhvlər müşahidə olunsa da, bu, nitqin normal inkişafına əngəl törətmir. Bu prosesə əsasən, artikulyasiya aparatının istənilən səviyyədə formalaşmaması, fizioloji meyarlara uyğun olaraq, keçici pəltəklik vəziyyəti kimi qiymətləndirilir. Ona görə də valideynlərə məktəbəqədər yaşlı uşaqların nitqinin inkişafında özünü göstərən fərqlər barədə, pedaqoji və psixoloji cəhətdən tövsiyələr vermək lazım gəlir. Unutmaq olmaz ki, gec danışan, nitqində çatışmazlıqları olan uşaqları dizartriyalı uşaqlar kimi qeydə almaq düzgün hesab olunur.

Bəzi ailələr uşaqlara düzgün olmayan vərdişlər aşılayırlar ki, bu zaman körpələri təqlid edərək, onlarla "uşaq dilində" danışırlar, məsələn: "Düdüdə minib, oppaya cidəy", "Bu cici nə dəşəydi", "Qaqa gəysin, üfə yesin" və s. Uşaqlara şeir parçalarını çox çətin əzbərlətmək də təsadüf edilən hallardandır. Yaşa uyğun tələffüzün möhkəmləndirilməsinə çalışmaq nitq mexanizminin fizioloji inkişafı nəticəsində baş verir. "Ailələrdə dizartriyalı uşaqlar olduqda, ilk növbədə, valideynlərə nitqin anatomik quruluşu barədə məlumat vermək lazım gəlir, ona görə ki, nitqin anatomiyasını bilmədən, nitqdə, danışıqda baş verən istər ağır, istərsə də yüngül qüsurların fizioloji əsaslarını öyrənmədən belə uşaqlara kömək etmək olmaz" [Sadıqov F., 2018].

Tərbiyəçi-müəllimlər nitqin formalaşması prosesinə rəhbərlik etməklə bərabər, nitqin inkişafına da xüsusi əhəmiyyət verməlidirlər. Məşğələ saatlarında tərbiyəçi-müəllimlər uşaqların səlis və aydın danışmalarına, rejim və gəzintilər zamanı nitqin formalaşmasına nəzarət etməlidirlər. Uşaqlar üçün təşkil olunan oyun və məşğələlərdə diksiyanın, düzgün tələffüzün qaydalarının formalaşmasına xüsusilə diqqət yetirmək lazımdır.

Onu da nəzərə almaq lazımdır ki, dil və dodağın hərəkətlərini izləmək nitq prosesində həmsöhbətinin üzünə baxmaq alışqanlığı yaradır və dəqiq artikulyasiyaların inkişafını təmin etmiş olur.

Uşaqlarda gələcəkdə fonematik qavramanın inkişafını təmin etmək üçün eşitmə diqqətini formalaşdırmaq çox vacibdir. Öz növbəsində, düzgün səs tələffüzü fonematik qavrama keyfiyyətinın daha da yaxşılaşmasına xidmət edir ki, bu da düzgün tələffüzün tənzimlənməsinə, səslərin eşitmə yolu ilə dəqiq qavranılmasına şərait yaradır.

Beləliklə, uşaqlarda səlis nitqə, səslərin düzgün tələffüzünə nail olmaq, nitq qüsurlarının qarşısını almaq üçün ardıcıl, məqsədyönlü və sistemli işlərin aparılması lazımdır.

## Nəticə / Conclusion

Beləliklə, qeyd etmək lazımdır ki, ölkəmizdə inklüziv təhsil istiqamətində aparılan genişmiqyaslı işlər, həm ailələrin, həm məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçi-müəllimlərin, həm də ibtidai sinif müəllimlərinin bu istiqamətdə mütəşəkkil formada maarifləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Xüsusilə valideynlərin nitq qüsurları və onların aradan qaldırılması yolları ilə bağlı biliklərə əvvəlcədən yiyələnmələri uşaqlarda daha böyük nitq qüsurlarının yaranmasının qarşısını alır, nitqin düzgün formalaşmasına şərait yaradır.

Qeyd olunur ki, fonematik qavramanın inkişafını təmin etmək üçün uşaqlarda eşitmə diqqətini formalaşdırmaq vacibdir. Sözlərin düzgün tələffüzü fonematik qavramanın keyfiyyətinın yaxşılaşdırılmasına xidmət edir və bu, düzgün tələffüzün tənzimlənməsinə, səslərin dəqiq qavranılmasına yol açır.

Məqalədə qeyd olunur ki, tərbiyəçi-müəllimlər nitqin formalaşması prosesinə rəhbərlik etməklə bərabər, nitqin inkişafına da xüsusi əhəmiyyət verməlidirlər. Məşğələ saatlarında tərbiyəçi-müəllimlər uşaqların səlis və aydın danışmalarına, rejim və gəzintilər zamanı nitqin formalaşmasına nəzarət etməlidirlər.

Beləliklə, dizartriyalı uşaqlarla aparılan korreksiya işlərini məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirməklə haqqında danışılan problemin müvəffəqiyyətli həllinə nail olmaq mümkündür.

**Məqalənin aktuallığı.** Məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlarda nitq qüsurlarının aradan qaldırılması günün aktual problemlərindən biridir. Məktəbəqədər yaş dövründən etibarən, valideynlər dizartriyalı uşaqlar haqqında biliklərə yiyələnməlidirlər ki, nitq qüsurlarını yaradan amillərin ilkin göstəricilərini müəyyənləşdirməyi bacarmaqla, ümumilikdə daha mürəkkəb nitq qüsurlarının qarşısının alınmasına nail olunsun. Bu istiqamətdə müsbət göstəricilərə nail olmaq üçün korreksiya işlərinin məqsədyönlü, sistemli şəkildə həyata keçirilməsi lazımdır.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, dizartriyalı uşaqlarda korreksiya işlərinin həyata keçirilməsində, məktəbəqədər və ibtidai təhsil sahəsində

çalışan tərbiyəçi-müəllimlərlə, fənn müəllimləri ilə yanaşı, valideynlərin də üzərinə xüsusi məsuliyyət düşür. Nitq qüsurlarının aradan qaldırılmasında, fizioloji, psixoloji və pedaqoji amillərin təsiri ilə yanaşı, ailə vəziyyətinin də müəyyən rolu vardır. Müasir dövrdə ailələrin psixoloji və pedaqoji imkanlarını öyrənməklə, uşaqların sağlam mühitdə böyümələri istiqamətində valideynlərin dizartriya haqqında biliklərə yiyələnmələri yenilik kimi qiymətləndirilir.

**Məqalənin praktik əhəmiyyəti.** Yerli və xarici ədəbiyyatdan götürülmüş tövsiyə və məsləhət xarakterli məlumatlar məqalənin praktik əhəmiyyətini artırır. Tərbiyəçi-müəllimlər, ibtidai sinif müəllimləri, valideynlər məqalədə məktəbəqədər və kiçik məktəb yaşlı dizartriyalı uşaqlarla korreksiya işlərinin aparılması ilə bağlı verilmiş faydalı məlumatlardan yararlana bilərlər. Məqalədən, eyni zamanda doktorant və dissertantlar, magistrlər, dizartriyalı uşaqlarla işləyən mütəxəssislər faydalana bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı. (1999). Azərbaycan Respublikası Prezidentinin 15 iyun, 1999-cu il tarixli Sərəncamı. Bakı, "Təhsil", 65 s.
2. Dostuzadə D., Sadıqov F. (2017). Dizartriya. (dərslik). Bakı, ADPU, 206 s.
3. Dostuzadə D.Ə. (2012). Uşaqlarda nitq qüsurları və onların aradan qaldırılması yolları. Bakı, TPİ-nin Elmi əsərləri, №4, s.165–168.
4. Əzizova Z., Cəfərova R., İsmayılov Ş. (2008). Loqopediyanın nəzəri əsasları haqqında ümumi məlumat. (dərs vəsaiti). Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının «Pedaqogika və psixologiya» bölməsinin 19 dekabr, 2008-ci il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 15). Mingəçevir şəhəri, 202 s.
5. Hüseynov Ə., Babayev M. (2002). Məşhur biologiya alimləri. Bakı, "Maarif", səh.82.
6. Qasımov S., Kərimova E., Sultanova İ., Ağayeva T. (2006). İnklüziv təhsil. Bakı: "Oka Ofset" nəşr., 163 s.
7. Mərdanova R. (2020). Hər uşağın öz dünyası: məni tanı, anla və sev. Uşaq psixologiyası. Bakı, "Şərq-Qərb", 233 s.
8. Sadıqov F. (2018). Korreksiya pedaqogikası. Bakı, "Maarif", 300 s.
9. Sadıqov F. (2018). Ümumi pedaqogika. Bakı, "Maarif", 800 s.

# JOINT WORK OF THE FAMILY AND THE SCHOOL IN FORMING YOUNG SCHOOLCHILDREN AS PERSONALITIES

**Lala Abilova**

Teacher of Humanitarian College under Azerbaijan State University of Culture and Arts, dissertation student of BSU
E-mail: abilzade.guler@gmail.com
https://orcid.org/0009-0006-3967-168X

**Abstract.** The article mentions that, taking into account the rapid development of modern life, the task of today's school is not only to teach children to learn, but also to involve parents in order to act as a unified education and upbringing, taking into account the impor tance of family upbringing. The interaction of teachers with parents in the school does not only involve the exchange of ideas. Therefore, every teacher in his work is looking for new and effective approaches to work with children and their parents, which allows to maximize the positive aspects of education and personality formation of a young schoolchild and minimize the negative aspects. Cooperation between the family and the school for the formation of the student's personality is one of the development prio rities of the education system today. In the process of training and upbringing of young students in the school, joint activity with parents affects the correct organization of the work. In this work, there is a need for mutual communication, uniformity in requirements, regular and consistent, planned activities. Because the goals and tasks facing the family and the school are the same: to educate a thoroughly developed person who loves his Motherland with deep love.

**Keywords:** formation of the student's personality, education, parent-teacher co-operation, joint work of family and school, priority tasks.

**DOI:** 10.30546/2709-2488.4.2023.49
**To cite this article:** Abilova L. (2023). Joint work of the family and the school in forming young schoolchildren as personalities. *Journal of Preschool and Primary Education*, Vol. 245, Issue IV, pp. 49-61.
**Article history:** received – 17.10.2023; accepted – 22.11.2023.

# KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞDIRILMASINDA AİLƏ İLƏ MƏKTƏBİN BİRGƏ İŞİ

**Lalə Əbilova**

ADMİU-nun nəzdində Humanitar Kollecin müəllimi,
BDU-nun dissertantı
E-mail: abilzade.guler@gmail.com
https://orcid.org/0009-0006-3967-168X

**Annotasiya.** Məqalədə qeyd olunur ki, müasir həyatın sürətli inkişafını nəzərə alaraq, bu gün məktəbin vəzifəsi yalnız uşaqlara öyrənməyi öyrətmək deyil, həm də ailə tərbiyəsinin vacibliyini nəzərə alaraq, vahid təhsil və tərbiyə prizmasından çıxış etmək üçün valideynləri də buna cəlb etməkdir. Məktəbdə müəllimlərin valideynlərlə qarşılıqlı əlaqəsi yalnız fikir, təcrübə mübadiləsini nəzərdə tutmur, həm də valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsinə yönəlmişdir. Buna görə də hər bir müəllim öz işində uşaqlarla, onların valideynləri ilə işləmək üçün yeni, effektiv yanaşmalar axtarır ki, bu da kiçik yaşlı məktəblinin tərbiyəsi, şəxsiyyətinin formalaşmasının müsbət tərəflərini maksimum dərəcədə artırmağa və mənfi cəhətləri minimuma endirməyə imkan verir. Şagird şəxsiyyətinin formalaşması üçün ailə ilə məktəbin birlikdə əməkdaşlıq etməsi bu gün təhsil sisteminin inkişaf prioritetlərindən biridir. Kiçik yaşlı şagirdlərin təlim və tərbiyəsi prosesində valideynlərlə birgə fəaliyyət pedaqoji işin düzgün qurulmasına təsir edir. Bu işdə qarşılıqlı əlaqə, tələblərdə vahidlik prinsiplərinin gözlənilməsinə, müntəzəm, ardıcıl və planlı fəaliyyətin aparılmasına ehtiyac var, çünki ailənin və məktəbin qarşısında duran məqsəd və vəzifələr eynidir: hərtərəfli inkişaf etmiş, öz vətənini dərin məhəbbətlə sevən insan tərbiyə etmək.

**Açar sözlər:** şagird şəxsiyyətinin formalaşdırılması, təlim-tərbiyə, valideyn-müəllim əməkdaşlığı, ailə ilə məktəbin birgə işi, prioritet vəzifələr.

**DOI:** 10.30546/2709-2488.4.2023.49
**Məqaləyə istinad:** Əbilova L. (2023). Kiçik yaşlı məktəblilərin şəxsiyyət kimi formalaşdırılmasında ailə ilə məktəbin birgə işi. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 4 (245), səh. 49-61.
**Məqalə tarixçəsi:** göndərilib – 17.10.2023; qəbul edilib – 22.11.2023.

## Giriş / Introduction

Müasir dövrdə həyatın bütün sahələrində, o cümlədən təhsildə baş verən dəyişikliklər insanda sosial istiqaməti formalaşdırmaq, baş verən dəyişikliklərə uyğun reaksiya vermək, yeni şəraitdə özünütənzimləmə, özünütəyinetmə, özünütəsdiq kimi xüsusiyyətləri aşkara çıxarmaq üçün vacibdir. Bununla əlaqədar istənilən səciyyəvi tədris müəssisəsi, sosial dəyişikliklərdən asılı olmadan, sosial inkişafa uyğun müstəqillik və təşəbbüs göstərməyə hazır olan yaradıcı şəxsiyyətə istiqamətlənməlidir.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 2013-cü il, 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda məktəbəqədər yaşlı uşaqların fiziki və əqli inkişafını, sosiallaşmasını təmin edən, yaradıcılıq qabiliyyətlərini üzə çıxaran, onlara həyati bilik və bacarıqları, davranış qaydalarını aşılayan təhsil standartlarının və yeni kurikulumların hazırlanması məsələləri əks olunur :"...təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərində əldə edildiyinə görə, uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur" [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası., 2013].

İnkişafın təbiət və cəmiyyətdə baş verdiyini, tərəqqi ilə səciyyələndiyini göstərən R.N.Mursaqulova, N.M.Rüstəmova qeyd edirlər: "İnkişaf dedikdə, fiziki, psixi və sosial inkişaf nəzərdə tutulur. İnkişaf uşaqlarda anadan olduğu gündən əmələ gələn kəmiyyət və keyfiyyət dəyişiklikləridir" [Mursaqulova R. Rüstəmova N., 2012].

İnsanın fiziki, əqli, anatomik inkişafı yaşla bağlıdır. Hər bir yaş dövrünün özünə xas fiziki, psixi, sosial inkişaf mərhələləri var. "İnsan öz inkişafında müxtəlif yaş dövrlərindən keçir və hər bir dövr şəxsiyyətin inkişafına müəyyən təsir göstərir. Şəxsiyyətin formalaşması kiçik məktəb yaşı dövründə olduqca nəzərəçarpacaq dərəcədə baş verir. Kiçik məktəb yaşlı uşağın ilk dəfə sosial əhəmiyyətli, sosial dəyərli təhsil fəaliyyəti ilə məşğul olmağa başladığı, həyatın xüsusi dövrüdür" [Qolovey L.A., 2016].

Ailədə və cəmiyyətdə insan şəxsiyyətinin yeni keyfiyyətlərlə formalaşdırılması zərurəti yaranır. Ona görə də hazırda böyüməkdə olan nəslin yeni maraqlar, qabiliyyətlər, bacarıqlar, dəyərlər əsasında inkişafı problemi aktuallaşmışdır.

Uşaqlar valideyn diqqətinə, qayğısına həmişə möhtacdırlar. Bu baxımdan, valideynlərin savadlı, yüksək intellekt səviyyəsinə, geniş dünyagörüşünə malik olmaları əsas məsələlərdəndir. Müasir məktəb üzərinə düşən əsas vəzifəni – ailənin, cəmiyyətin və dövlətin maraqlarına uyğun olaraq zəruri biliklər, hə-

yati bacarıqlar, əxlaqi-mənəvi dəyərlər zəminində tərbiyə alan vətəndaş yetişdirmək vəzifəsini yerinə yetirməlidir.

Azərbaycan Respublikasının Konstitusiyasında qadın hüququ və qadınların övlad tərbiyəsində rolu geniş şəkildə açıqlanmışdır. Konstitusiyanın 17-ci maddəsində göstərilir: "Cəmiyyətin özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir" [Azərbaycan Respublikasının Konstitusiyası.,1997].

Ailə uşağın şəxsiyyətinin inkişafına təsir edən fundamental sosial-psixoloji amildir. Uşaq ailədəki tərbiyə çərçivəsində nə qazanırsa, onu bütün həyatı boyu özündə saxlayır.

## Əsas hissə / Main part

Ailə uşağa onun gələcəkdə rəhbər tutacağı müxtəlif davranış modellərini təqdim edir, onun şəxsiyyətinin formalaşmasına, düşüncələr, hisslər, arzular dünyasına, tərbiyəsinə həlledici təsir göstərir. Xüsusi sosial mühit kimi özünəməxsus qayda və davranış normalarına malik olan ailə uşağın gələcək həyatı üçün nümunədir. Uşaq məhz ailədə insanların hərəkətlərinə ilk reaksiyasını görür, mənəvi-əxlaqi dəyərlərə, mədəni ənənələrə, təcrübəyə və əxlaq normalarına yiyələnir, həyatın mənzərəsini seyr edir. Uşaqlıq dövründə alınan təəssüratlar çox vaxt insanın gələcək işini, həyat tərzini müəyyənləşdirir, lakin qeyd etmək yerinə düşər ki, uşağın şəxsiyyətinin inkişafına son dərəcə müsbət təsir göstərən ailədə belə, tərbiyə bir sıra amillərdən asılıdır ki, onların əsasında sevgi, inam və qarşılıqlı anlaşma dayanır. Ailədə baş verən münaqişələr uşağın şəxsiyyətinin formalaşmasına mənfi təsir göstərir. Belə uşaqlar həmyaşıdları ilə və böyüklərlə ünsiyyətdə çətinliklərlə üzləşirlər.

Professor Y.Ş.Kərimov yazır: "Hər bir uşaq tədqiq olunmalı qapalı bir aləmdir. Uşaqda qapalı olan cəhətləri görmək və nəzərə almaq hər bir valideynin borcudur. Uşağı öyrənmək dedikdə, onun marağını, meylini, əyləncə və qabiliyyətini, əqli inkişafını öyrənmədən, ardıcıl izləmədən onu tərbiyə etmək olmaz. "Uşağı bütün münasibətlərdə tərbiyə etmək üçün onu bütün istiqamətlərdə öyrənmək lazımdır". Belə yanaşma tərbiyəçi və valideynlərin qarşısında ciddi vəzifələr qoyur. Uşağı sevmək azdır, onu tanımaq son dərəcə vacibdir. Hər bir insan, o cümlədən uşaq təkrarolunmazdır.

Uşaqların hər birində özünəməxsus xüsusiyyət və qabiliyyətlər var. Bu qabiliyyətləri vaxtında aşkara çıxarıb inkişaf etdirmək lazımdır" [Kərimov Y., 2002].

Uşağın şəxsiyyətinin formalaşmasında ailənin rolu problemi bu gün də aktual

olaraq qalır. Bir çox pedaqoq və psixoloqların əsərləri bu problemin öyrənilməsinə həsr edilmişdir. Ailə mühitinin və əhatəsində olan böyüklərin uşağa göstərdiyi təsir onun əqlinin inkişafında çox böyük rol oynayır. Ona görə də valideynlərlə iş prosesində uşaqların əqli inkişafı məsələsinə diqqət yetirilməsi məqsədəuyğundur. Valideynlər öz uşaqlarının əqli qabiliyyətləri haqqında müəllimdən məlumat alır və uşağı hərtərəfli inkişaf etdirmək məqsədi ilə müəllimlə əməkdaşlıq edirlər.

Valideynlər indi daha çox uşaqların təhsilinə maraq göstərir, uşaqları istiqamətləndirməyə çalışırlar. Bu baxımdan, valideyn-məktəb münasibətlərinin düzgün qurulması məsələsinə diqqət daha da artmışdır.

Müasir dövrün tələbləri müəllimlərin üzərinə ciddi vəzifələr qoyur, lakin yalnız ailə və məktəb mühitinin düzgün təşkil olunması kifayət etmir. Müşahidələr göstərir ki, yaşadığı məhəllədə, küçədə dostluq etdiyi yoldaşlarının əxlaqı da kiçikyaşlı uşaqlara güclü təsir edir. Yeniyetmələrin hədsiz əzizlənməsi, hər cür tələblərinə güzəşt edilməsi, bəzi hərəkət və davranışlarında onlara sərbəstlik verilməsi yaxşı nəticələnmir.

Şagird şəxsiyyətinin formalaşması üçün ailə ilə məktəbin birgə əməkdaşlığı bu gün təhsil sisteminin inkişaf prioritetlərindəndir.

Professor Y.Ş. Kərimov insanın şəxsiyyət kimi formalaşmasında onun fəallığının mühüm rol oynadığını qeyd edərək, şəxsiyyətin tamlığında üç əsas cəhəti fərqləndirməyin mümkünlüyünü göstərir.

“1) Fəallıq idraka, ətraf aləmdəki dəyişikliklərə, insanın oz təbiətinin dəyişməsinə, psixi həyat tərzində baş verən hadisələrin korrektəsinə, özünütərbiyəyə yönəlmiş çoxtərəfli fəaliyyətdə özünü göstərir.

2) Şəxsiyyətin imkanları onun öz fəaliyyətində nail olduğu müvəffəqiyyətlərin psixoloji şərtlərini (xüsusi qabiliyyətlərini) əhatə edir.

3) Şəxsiyyətin davranış üslubu psixoloji xüsusiyyətləri (temperament və xarakter) əhatə edir. Fəallıq ətraf aləmlə qarşılıqlı münasibətlər prosesində meydana çıxır” [Kərimov Y., 2010].

Təcrübə göstərir ki, məktəbdə kiçikyaşlıların təlim və tərbiyəsi prosesində valideynlərlə əlbir fəaliyyət işin düzgün qurulmasına təsir edir. Bu işdə qarşılıqlı əlaqə, tələblərdə vahidlik, müntəzəm, ardıcıl, planlı fəaliyyətin aparılmasına ehtiyac var, çünki ailə və məktəbin qarşısında duran məqsəd və vəzifələr eynidir.

Məktəb ilə ailənin birgə işi, müəllim və valideyn əməkdaşlığı müxtəlif formalarda həyata keçirilir. Valideynlərin məktəbə gəlmələri, təlim prosesində iştirak etmələri çox vacibdir, çünki bu zaman valideyn evdə uşağının görmədiyi xarakter xüsusiyyətlərini dərs prosesində və yoldaşları ilə ünsiyyətdə görür. Valideynin müəllimlərdən məsləhətlər alması, valideyn iclaslarında iştirak etməsi onun sinfin ümumi vəziyyəti, müəllim-şagird münasibətləri ilə daha yaxından

tanış olmasına səbəb olur. Hər iki tərəfin təlim-tərbiyə məsələlərində birlikdə, həvəslə və məqsədyönlü iştirak etməsi məsləhətdir.

Təcrübə göstərir ki, təlim-tərbiyə prosesində mənimsənilən bilik və bacarıqlar, ilk növbədə, ailədə möhkəmləndirilir. Belə qarşılıqlı əməkdaşlıq uşağın dünyagörüşünün formalaşmasına, əqli fəaliyyətinin zənginləşməsinə, özünəinamın yaranmasına təsir göstərir. Bu baxımdan, valideynlərin məktəbdə keçirilən bütün kütləvi tədbirlərdə, təlim-tərbiyə prosesində, problemlərin həllində iştirak etməyə cəlb edilmələri vacib məsələlərdəndir.

Müşahidələr göstərir ki, məktəbin valideynlərlə əməkdaşlığı vacibdir, çünki uşağın təlim-tərbiyəsində yalnız məktəb valideynlərə real pedaqoji kömək göstərə bilər.

Valideynlərdə təhsil prosesi haqqında vahid anlayışın formalaşdırılması, onların müxtəlif formalarda tədris prosesinin təşkilinə cəlb edilmələri üçün ictimai işin lazımi səviyyədə təşkili əsas məsələlərdəndir. Sinif rəhbərinin fəaliyyət proqramı valideynlərlə birlikdə yaradılır. Bu proqram əsasında onların övladları tərbiyə alırlar və bu baxımdan proqram hazırlanarkən valideynlərin istək və tələblərinin də nəzərə alınması vacibdir.

Yeni təhsil paradiqması valideynləri təhsil prosesinin subyekti elan edir. Bu da onların övladlarının təhsil və tərbiyəsinin keyfiyyətinə görə məsuliyyət daşımaları deməkdir. Bəzi valideynlər pedaqoji özünütəhsil sahəsində fəal şəkildə çalışır, müasir təhsil prosesinin mahiyyətini, məktəbin təhsil və tərbiyə proqramlarının xüsusiyyətlərini anlamağa çalışırlar. Valideynlərin artan pedaqoji sərişt-əliliyi onların psixoloji və pedaqoji təhsilinin uğurlarından danışmağa imkan verir.

Geniş istifadə olunan mədəni əməkdaşlıq növləri – valideyn iclasları, müəllimlər və psixoloqlar tərəfindən valideynlərə verilən məsləhətlər bu günün məzmununa görə keyfiyyətcə yeni səviyyəyə çatır:

– valideynlərin məktəblə birgə təhsil fəaliyyətinə cəlb edilmələri;
– valideynlərin hüquqi maarifləndirilmələri;
– ailə tərbiyəsində valideynlərə kömək;
– valideynlərin məktəbə maddi yardım göstərmələri;
– məktəblə birlikdə uşaqların sosial müdafiəsinin təşkili;
– ailədə və məktəbdə uşağın sağlam həyat tərzinin təşkili.

Ailəni öyrənmək üçün sinif rəhbərinin tərtib etdiyi anketin valideynlərlə söhbət zamanı doldurulması məqsədəuyğundur. Valideynlər və şagirdlər arasında keçirilən sorğu əsasında təhsil konsepsiyasının vətəndaş və vətənpərvərlik tərbiyəsi, profilaktik iş proqramlarının, məktəbin valideyn komitəsi və onun işi haqqında əsasnamənin hazırlanması mühüm problemlərdir.

Valideynlərlə işin ən səmərəli forması sinfin xüsusiyyətlərindən, şagirdlərin yaşından, valideyn kontingentindən asılı olaraq ayda və ya rübdə bir dəfə keçi-

rilən valideyn iclasıdır. Valideynlərlə əməkdaşlıq şagirdin şəxsi keyfiyyətlərini yaxşılaşdırmağa, onların təlim-tərbiyəsinin səmərəli təşkilinə kömək edir. Mədəni, yüksək əxlaqlı, yaradıcı və sosial cəhətdən yetkin bir insan yetişdirmək üçün müəllim və valideynlərin müttəfiq kimi çıxış etmələri, öz xeyirxahlığını, təcrübəsini, biliklərini uşaqlarla bölüşmələri zəruridir. Ona görə də sinif rəhbəri uşaq kollektivi ilə işləyərkən, ilk növbədə, şagirdlərin valideynləri ilə əməkdaşlıq etməli və ünsiyyət qurmalıdır. Bu baxımdan, valideynlərin uşaqların təlim-tərbiyə problemləri ilə bağlı ciddi və məqsədyönlü şəkildə maarifləndirilmələri çox əlverişlidir. Valideynlərin maarifləndirilməsi şagirdlərin təlim-tərbiyə işlərində səmərəli nəticələr əldə etmələrinə səbəb olur.

Müəllim, şagirdlər və valideynlərin birgə fəaliyyəti sinfin təhsil sisteminin unikal modelini hazırlamağa imkan verir. Sinfin tərbiyə sistemində əsas məsələ müvafiq mənəvi-psixoloji ab-havanın, yaradıcı mühitin, xeyirxah münasibətlərin yaradılmasıdır. Bütün bunlar hər bir şagirdin, bütövlükdə kollektiv münasibətlərin inkişafına, həyat mövqeyinin, həyata münasibətin formalaşmasına kömək edir.

V.A.Suxomlinski vaxtilə yazmışdı: "Qoy uşaq şagird olarkən dünən nə isə, bu gün də onu davam etdirsin. Qoy yeniliklər onun həyatında tədricən özünü göstərsin və təəssürat seli ilə heyrətləndirməsin" [Sukhomlinskiy V.A., 1972]. Bu arzu indi yalnız peşəkar pedaqoqların deyil, həm də valideynlərin böyük bir qisminin arzuları ilə üst-üstə düşür.

Uşağın şəxsiyyət kimi formalaşdırılması və inkişafı üçün onun ailədə özünü sakit, açıq, emosional olaraq azad, müdafiə olunmuş hiss etməsi çox vacibdir, çünki ailə tərbiyəsi gündəlik həyatın pedaqogikasıdır, davam edən təcrübədir, yaradıcılıqdır. Ailə pedaqogikası gündəlik həyatda insan şəxsiyyətinin formalaşmasını həyata keçirir. Ailə ilə məktəbin birgə işi bu nəcib məqsədin yerinə yetirilməsinə yalnız kömək edir. Bunun üçün aşağıda göstərilən iş formalarından istifadə olunması vacibdir:

**1) Valideynlərlə iş** iki istiqamətdə aparılır – valideynlərin psixoloji və pedaqoji biliklərinin artırılması və onların təhsil prosesinə cəlb edilməsi.

**2) Əməkdaşlıq** ideyası bütün işlərdə aydın şəkildə həyata keçirilir, uşaqların həyatının zənginləşməsinə töhfələr verir, uşaq kollektivində əlverişli mənəvi-psixoloji mühitin formalaşmasına kömək edir, müəllim – şagird, müəllim – valideyn, şagird – valideyn münasibətlərini möhkəmləndirir və inkişaf etdirir.

**3) Müəllimin riayət etdiyi əsas dəyərlər** bunlardır: təhsil, məqsədyönlülük, demokratiya, zəka, müsbət davranış, qanunlara əməl etmək.

Valideynlərdən ibarət təşəbbüs qrupu tədris prosesində müxtəlif yardımlar göstərir. Bütün sinif kollektiv şəkildə məktəb tərəfindən keçirilən bütün bayramlarda və xeyriyyə tədbirlərində iştirak edir. Bundan əlavə, aşağıdakı iş formaları

tətbiq olunur:

a) konfranslar (uşaqların tərbiyəsi ilə bağlı biliklərin genişləndirilməsi, dərinləşdirilməsi və möhkəmləndirilməsini təmin edir);

b) məktəbin tərbiyə işi sistemində valideyn konfransları (ümummək tə b, sinif) (Valideyn konfranslarında uşaqların fəal üzvlərinə çevriləcəyi cəmiyyətin aktual problemləri müzakirə olunur. Valideyn-uşaq münaqişələri və onlardan çıxış yolları, narkomaniya, hüquqi maarifləndirmə, ailədə cinsi maarifləndirmə – bunlar valideyn konfranslarının mövzularıdır).

**4)Valideyn konfransları** psixoloq, sosial pedaqoq və tibb işçisinin iştirakı ilə keçirilir. Onların vəzifəsi problemlərlə bağlı sosioloji, psixoloji tədqiqatlar aparmaq, onların nəticələri ilə konfrans iştirakçılarını tanış etməkdir. Bu konfransda müxtəlif mövzularda söhbətlərin, məsələn, "Yeniyetməlik və onun xüsusiyyətləri", "Yeniyetməlik dövrünün mümkün böhranları (psixoloji)", "Uşağınıza "yox" deməyi öyrədin" və s. aparılması məsləhətdir. Həmçinin yeniyetmələr arasında hüquq pozuntuları, onların qarşısının alınması ilə bağlı məlumatlar verilir, söhbətlər aparılır. Valideynlərin özlərinin də bu konfransların fəal iştirakçısı olmaları lazımdır. Onların problemin təhlilini öz təcrübələri nöqteyi-nəzərindən hazırlamaları əsas məsələlərdəndir. Konfransın səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, burada müəyyən qərarlar qəbul edilir və ya qeyd olunan problemlə bağlı fəaliyyət istiqamətləri müəyyənləşdirilir.

**5) Açıq dərslər** (məqsəd valideynləri müəyyən fənn üzrə yeni proqramlar, tədris metodları və müəllimlərin tələbləri ilə tanış etməkdir). Problemlərin qarşısını almaq üçün valideynlər imtahana hazırlıq zamanı dərslərdə iştirak etməli və müəllimlər onları testlərin nəticələri ilə tanış etməlidirlər. Belə dərslər valideynlərin təlim fəaliyyətinin xüsusiyyətlərini bilməmələri, yaxud başa düşməmələri nəticəsində yaranan bir çox münaqişələrin qarşısını alır.

**6) Fərdi tematik məsləhətləşmələr** (məktəb işləri və uşağın davranışı, problemləri haqqında real təsəvvür yaradan məlumat mübadiləsi). Fərdi məsləhətləşmələr sinif rəhbəri ilə ailə arasında qarşılıqlı əlaqənin ən mühüm formalarından biridir. Bu, müəllimin yeni mövzunu izah etdiyi zaman, xüsusilə lazımdır. Valideynlərin narahatlığını, övladı haqqında danışmaq qorxusunu aradan qaldırmaq üçün onlarla fərdi məsləhətləşmələr – müsahibələr aparmaq lazımdır. Məsləhətləşmələrə hazırlaşarkən cavabları sinifdə tərbiyə işinin planlaşdırılmasına kömək edən bir sıra suallar əsasında müəyyən etmək məqsədəuyğundur. Fərdi məsləhətləşmələr araşdırma xarakterli olmalı və valideynlərlə müəllim arasında əlaqə yaratmağa kömək etməlidir. Sinif müəllimi valideynlərə qeyri-rəsmi şəraitdə müəllimə təqdim etmək istədikləri hər şeyi söyləmək və uşaqla peşəkar iş aparmaq üçün aşağıdakı vacib məlumatları tapmaq imkanı verməlidir:

– uşağın sağlamlıq vəziyyəti haqqında məlumat;

– uşağın maraq və istəkləri;
– uşağın ailə ilə ünsiyyətində olan əsas çətinliklər;
– uşağın davranış reaksiyaları;
– uşağın xarakter xüsusiyyətləri;
– uşağın öyrənmə motivasiyası;
– ailənin mənəvi dəyərləri.

**7) Ailəyə baş çəkmək** (müəllimin valideynlərlə fərdi işi, ailənin məişət şəraiti ilə tanış olması, uşağın davranışı və əməksevərliyi ilə bağlı müşahidə gündəliyinin aparılması.)

**8) Valideyn oxularının təşkil olunması** valideynlərlə işin çox maraqlı formasıdır. Bu, valideynlərə yalnız müəllimlərin mühazirələrini dinləmək deyil, həm də problemə dair ədəbiyyatı öyrənmək və onun müzakirəsində iştirak etmək imkanı verir. Valideyn oxularını belə təşkil etmək mümkündür: dərs ilinin əvvəlində keçirilən ilk iclasda valideynlər onları daha çox narahat edən uşaqların təlim-tərbiyəsi, psixologiyası məsələlərini müəyyənləşdirirlər, məsələn, "Yeniyetmənin cinsi tərbiyəsi", "Uşağın yaddaş problemləri", "Yaddaşı necə inkişaf etdirmək olar?" və s.

Sinif rəhbəri məlumat toplayır və təhlil edir. Valideynlərin suallarına cavab ala biləcəkləri ədəbiyyatlar seçilir. Onlar tövsiyə olunan ədəbiyyatları oxuyur və sonra valideyn oxularında kitablardan aldıqları məlumatlardan istifadə edirlər. Valideyn mütaliələrinin bir xüsusiyyəti də ondan ibarətdir ki, valideynlər əsəri təhlil edərkən problemlə bağlı öz anlayışlarını ifadə etməli və onun həllinə yanaşmalarını dəyişməlidirlər. Həm ənənəvi, həm də qeyri-ənənəvi üsullar, sinif rəhbəri ilə valideynlər arasında qarşılıqlı əlaqə formaları, qarşıya bir ümumi məqsəd qoyur – gənc nəsli xoşbəxt etmək, müasir mədəni həyata daxil olmaq.

**9) Valideyn iclasları.** Sinif valideyn iclasları rübdə bir dəfə keçirilir, zəruri hallarda daha tez-tez keçirilə bilər. Mövzular sinifdə tərbiyə işinin vəzifələrinin müzakirəsi, tərbiyə işinin planlaşdırılması, ailə ilə məktəb arasında sıx əməkdaşlıq yollarının müəyyən edilməsi, aktual pedaqoji problemlərin nəzərdən keçirilməsi və s. ola bilər.

Valideynlərlə aparılan işlərdə, ilk növbədə, məktəblilərin dərslərini hazırlamaları üçün evdə zəruri şəraitin yaradılması, habelə ailədə onların davranışlarına və gün rejiminə riayət edilməsinə diqqət yetirilməlidir.Bəzən valideynlər şagirdlərin texniki yaradıcılıq sahəsində tələbatlarının ödənilməsinə lazımi diqqət yetirmir, iş guşələrinin yaradılmasında onlara kömək etmirlər. Bütün bunlar, təbii ki, valideynlərlə müvafiq işin aparılmasını tələb edir.

Müəllim valideynlərlə birlikdə uşaqların təlim-tərbiyəsində, davranışında olan çatışmazlıqların səbəblərini təhlil edir, onların aradan qaldırılması yollarını göstərir. "Valideynlərlə fərdi iş çox vacibdir. Müəllimlər fərdi yardım göstərmək-

də və valideynlərə təsir göstərməkdə lazımi pedaqoji taktikalardan istifadə etməlidirlər" [Kulikova T.A.,1999].

Məktəblə ailənin ünsiyyət formalarından biri də şagirdlərlə sinifdənkənar tərbiyə işinin aparılmasında valideynlərin köməyinin təşkil olunmasıdır. Məktəbdə valideynlərin maarifləndirici fəaliyyəti şagirdlərlə söhbətlər, təqdimatlar və müzakirələr şəklində həyata keçirilir. Onlar məktəbliləri elm və texnikanın inkişafı, insanların istehsalat uğurları ilə tanış etməyə çalışırlar. Bu çıxışların mövzuları tibb, incəsənət məsələləri, görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığından bəhs edən hekayələrdən və s. götürülür.

Ailə uşağın ilkin sosiallaşmasını həyata keçirir. Uşaqlarla valideynlər arasında fiziki, emosional və sosial-psixoloji ünsiyyət, əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. "Ailədə uşağın şəxsiyyətinin inkişafına fərdi yanaşma reallığa çevrilir. Yaşlıların uşağa həssas və diqqətli münasibəti bizə onun qabiliyyətlərini dərhal müəyyən etməyə, maraq və meyillərini dəstəkləməyə imkan verir" [Mudrik A., 2001].

Valideyn iclasları onların maarifləndirilməsi işini həyata keçirir. Valideyn iclaslarında sinfin və valideyn kollektivinin həyatındakı problemlər, şagirdlərin təlim nailiyyətləri müzakirə olunur. Valideynlərlə görüş uşağın əldə etdiyi uğuru nümayiş etdirmək üçün bir fürsətdir. İclasda söhbət şagirdlərin qiymətlərindən deyil, biliklərin keyfiyyətindən, idrak və mənəvi motivasiyaya uyğun gələn intellektual səylərin dərəcəsindən getməlidir. İclasda müxtəlif mövzularda söhbətlər aparmaq lazımdır. Bunlara misal olaraq "Bu gün bizim hansı nailiyyətlərimiz var?", "Yeniyetmələrə peşə seçimində kömək göstərilməsi" və s. göstərmək olar.

Hər bir şagirdin nailiyyətlərinin toplandığı portfolio var ki, şagirdin fəaliyyəti haqqında bütün məlumatlar burada öz əksini tapır. Valideynlərlə təşkil olunan iclas və toplantılarda şagirdlərin əl işlərindən, onların təlim-tərbiyə və dərsdənkənar fəaliyyətlərində əldə etdikləri nailiyyətlərdən ibarət sərgilər də hazırlanır.

Bəzi valideynlər yalnız dərslərdə deyil, həm də məktəb tədbirlərində fəal iştirak edirlər. Bu tədbirlərə bayram şənliklərini, konsertləri, 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş "Analar hər şey edə bilər" müsabiqəsini, ekskursiyaları və s. daxil etmək olar. Valideynlər bu tədbirlərdə, xüsusən də görməli yerlərə səyahət və ekskursiyaların təşkilində fəal iştirak edirlər.

İdman tədbirlərinin keçirilməsində də valideynlərin iştirakı məqsədəuyğundur. İdman tədbirlərinə "Maneələr yolu", "Sağlamlıq günləri", "Ata, ana, mən – biz idman ailəsiyik!", estafet yarışları və s. aiddir. Valideynlərin fəal iştirakı ilə fənn həftələrinin, "İlin şagirdi" müsabiqəsinin keçirilməsi də məqsədə müvafiqdir. Bütün bunlar valideynlərin öz övladlarını daha yaxından tanımalarına, onların maraqlarının, istedadlarının bilinməyən tərəflərini kəşf etmələrinə imkan verir.

Valideynlərin köməyi ilə sinif rəhbərinin məktəbdənkənar işlərin məzmununu daha da genişləndirməsi, valideynlərin iştirakı ilə konfransların keçirilməsi də mümkündür. Valideyn iclaslarının təşkil olunmasında aşağıda göstərilən tövsiyələrə əməl olunması vacib məsələlərdəndir:

– valideyn iclaslarında valideynlər maarifləndirilməlidirlər, onlara uşaqlarının səhvləri, uğursuzluqları və ya uğurları haqqında danışılmamalıdır;

– iclasın mövzusu uşaqların yaş xüsusiyyətlərinə uyğun olmalıdır;

– görüşlərin mövzuları həm nəzəri, həm də praktik aspektdə olmalıdır: vəziyyətin təhlili, təlimlər, müzakirələr və s.;

– iclasda şagirdlərin şəxsiyyəti müzakirə olunmamalıdır.

Valideynlərin maarifləndirilməsi üçün, əsasən aşağıdakı mövzular ətrafında müzakirələr aparılmalıdır: "Uşaq oxumaq istəmirsə, ona necə kömək etmək olar?","Uşağın yaddaşı zəifdirsə, onu necə inkişaf etdirmək olar?", "Uşaqların təhsilində ortaya çıxan çətinliklərin aradan qaldırılması yolları", "Uşağı cəzalandırmaq olarmı? Cəza necə olmalıdır?", "Uşaqlarda utancaqlıq problemi və onun aradan qaldırılması yolları", "Ailədə kobudluq və anlaşılmazlıq problemləri", "Ailədə istedadlı uşaq var", "Uşaqlar və onların dostları", "Uşaqla ünsiyyət problemləri".

Valideyn iclası sinif rəhbərinin şagirdin ailəsi ilə işinin ən mühüm forması, tədris prosesinin səmərəliliyinin artırılması vasitəsidir. Aşağıdakı istiqamətlər üzrə valideyn iclaslarının keçirilməsi məsləhətdir:

– təşkilati fəaliyyət;

– məlumat və təhsil fəaliyyəti;

– yaradıcı istiqamət;

– sağlam ailə, sağlam həyat tərzinin təbliği.

Uşaqlar həyatda bunları öyrənirlər:

– uşaq tolerantlıq şəraitində böyüyərsə, başqalarını başa düşməyi öyrənir;

– uşaq tərifənirsə, o, nəcib olmağı öyrənir;

– uşaq təhlükəsiz şəraitdə böyüyərsə, insanlara inanmağı öyrənir;

– uşaq hamı tərəfindən dəstəklənirsə, özünə dəyər verməyi öyrənir;

– uşaq anlayış və dostluq şəraitində yaşayırsa, hörmət etməyi, sevməyi öyrənir.

Təhsil səviyyəsi yüksək olan müəssisələrdə valideynlərin məktəb həyatında iştirakı daha mənalı və fəal olur, çünki keyfiyyətli təhsil valideynlərin təhsil müəssisəsinə inamını artırır, onlarda təhsil xidmətlərinə olan tələblərin həyata keçirilməsinə inam yaranır.

Təhsil müəssisələri şəraitində ailələrin təhsil səviyyəsi, sosial vəziyyəti, maddi rifahı baxımından diferensiallaşdırılması istiqamətində yaranan tendensiya məktəbdə təhsil prosesinin inkişafına dəstəkdir, çünki valideynlərin kifayət qədər

yüksək təhsil səviyyəsi onları məktəbdə təhsil sisteminin inkişafına cəlb etməyə imkan verir.

Beləliklə, sinif rəhbərinin vəzifəsi valideynləri uşaqların inkişafı üçün təhsil prosesinə cəlb etmək və prosesdə fəal iştirak etmələrinə şərait yaratmaqdır. Bunun üçün vahid təhsil məkanı – valideyn-uşaq-müəllim üçbucağı yaradılmalı və təhsil prosesinin iştirakçıları kimi valideynlərin iştirakı daha da fəallaşdırılmalıdır.

## Nəticə / Conclusion

Deyilənləri ümumiləşdirdikdən sonra belə nəticə hasil olur ki, cəmiyyətin sağlam şəkildə formalaşması və inkişaf etməsi ailədən başlayır. Uşağın inkişafında, şəxsiyyətinin formalaşmasında valideynin övladına olan münasibət müxtəlif ailə modellərində özünü göstərir. Bu baxımdan, ailə və məktəb, uşağın maraqlarına uyğun olaraq, onun təhsili və inkişafı üçün məsuliyyəti bölüşməlidir.

Məktəb-ailə münasibətlərinin əlaqələndirilməsi sahəsində aparılan işlər sırasında mühazirələr, "açıq qapı" günləri, disputlar və s. tədbirlər də mühüm rol oynayır. Valideynlər daim təlim-tərbiyə prosesində iştirak etməli, övladlarının parlaq gələcəyi naminə məktəblə müntəzəm əlaqə saxlamalıdırlar. Onlar məktəbin ictimai həyatında, onun idarəetmə işlərində iştirak etməklə problemlərlə yaxından tanış olur və bu problemlərin həllində maraqlı tərəf kimi iştirak etməyə çalışırlar.

Məktəbə qəbul olunmuş şagird onu narahat edən bir sıra problemlərlə qarşılaşmalı olur. O, artıq məktəbəqədər dövrdə olduğu kimi davranmamalıdır. Şagirdlər üçün nəzərdə tutulmuş qaydalara əməl etməli, tənəffüslərdə həmişə sinfə vaxtında daxil olub, vaxtında çıxmalı, dərsdə sakit oturmalı, dərs zamanı sinifdən çıxanda və ya sinfə daxil olanda müəllimdən icazə almalı, müəllimlərin tələb və göstərişlərini yerinə yetirməlidir. Bu yaş dövründə uşağın ünsiyyət sahəsi genişlənir. O, müəllimləri və həmyaşıdları ilə ünsiyyətə girməli olur. Bu dövrdə müəllim şagirdin nüfuz obyektinə çevrilir.

Müəllim də bilməlidir ki, onun sinifdə gördüyü iş valideynlərin fəal iştirakı olmadan yüksək nəticə verməyə bilər. Bu işə ibtidai siniflərdən başlamaq vacibdir, çünki uşağın məktəbdə təhsil aldığı ilk vaxtlardan valideynlərlə aktiv iş şəraitində sağlam və tam hüquqlu bir insan kimi formalaşması, inkişafı üçün yeni biliklər əldə etmək ehtiyacını dərk etməyə imkan verir. Bu gün təhsil sistemi o qədər sürətlə dəyişir ki, valideynlər çox vaxt bu dəyişikliklər haqqında kifayət qədər təsəvvürə malik olmurlar. Tədris fəaliyyətində əsas diqqəti müəllimin öz məktəb təcrübələrinə yönəldirlər ki, bu da əksər hallarda müasir tələblərdən geri qalır. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün müəllim təhsil prosesini valideynlər üçün

mümkün qədər açıq, məlumatlı və əlçatan etməlidir. Məktəb təcrübəsi göstərir ki, valideynlərlə müəllim arasında qarşılıqlı anlaşma yaranarsa, valideynlər məktəblə və müəllimlə fəal əməkdaşlığa can atmağa başlayırlar. Ailədə uşaqların tərbiyəsini düzgün təşkil etmək üçün valideynlər məktəblə sıx əlaqə saxlamalı, pedaqoqlardan vaxtında lazımi məsləhətləri almalıdırlar.

**Məqalənin aktuallığı.** Kiçik yaşlı məktəblilərin şəxsiyyət kimi formalaşdırılmasında ailə ilə məktəbin birgə işi müasir dövrdə pedaqogikanın aktual problemlərindən biridir. Məktəb–ailə münasibətlərinin əlaqələndirilməsi məqalədə əsas problemlərdən biri kimi təhlil olunur.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, yeni təhsil paradiqmalarından biri olan valideynlərin təhsili problemini təhsil prosesinin subyekti elan edib. Bu isə onların da öz övladlarının təhsil və tərbiyəsinin keyfiyyətinə görə məsuliyyət daşımaları mənasına gəlir və bu işə ibtidai siniflərdən başlamaq lazım gəldiyini təsdiq edir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədən orta ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri, bu sahə üzrə təhsil alan magistrlar, bakalavrlar, tədqiqatçılar bəhrələnə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). “Azərbaycan müəllimi”, 25 oktyabr, № 41.
